Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

16
YANVAR
2020-ci il

№ 7 (4138)

Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

■ səh. 2 ■

# AVROPA KOMİSSİYASI ÜÇÜN MƏCBURİ İCRA SƏNƏDİ - BEYNƏLXALQ TANINMIŞ SƏRHƏDLƏR DAXİLİNDƏ AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNƏ DAHA BİR MÖTƏBƏR DƏSTƏK...

ABŞ Azərbaycanı və qonşuları İranın kiberhücum təhlükəsində qoyub, lakin heç bir texniki kömək təklif etmir... ■ səh. 9 ■

ABŞ Konqresi 20 Yanvarla bağlı bəyanat verdi... ■ səh. 4 ■

AŞPA qərəzlə yanaşdığı Azərbaycanda siyasi məhbus məsələsinə yeni ad tapıb - "sistem xarakterli"... ■ səh. 5 ■

Korrupsiyaya qarşı... idarəsi 83 milyon manatdan çox vurulmuş maddi ziyanın azı 74 milyon manatını ödətdirdi ■ səh. 2 ■

Paşinyanın 49 hərbçi itkisini normal sayması Ermənistanı qarışdırdı - "bu sadəcə fəlakətdir..." ■ səh. 10 ■

Azərbaycanda hərtərəfli inkişaf rəqəmləri fonunda Ermənistan aqrar sektorda 4 faiz tənəzzülü rəsmən bəyan etdi... ■ səh. 12 ■

Turizm Azərbaycana Ermənistanın dövlət büdcəsindən artıq gəlir gətirməyə başlayıb - 3 milyarddan çox... ■ səh. 12 ■

İngiltərə kral ailəsində nələr baş verir - sirlər açılır, 44-cü ildə Hitlerlə gizli əlaqə quran şahzadədən Dianaya qədər, oradan isə... ■ səh. 11 ■



■ səh. 3 ■

## Prezident Azərbaycanın Avrasiyada yeni statusunu hədəflədi - nəqliyyat mərkəzi olduq, mütləq internet, rabitə və fiberoptik xətlərin də mərkəzinə çevrilməliyik





Azərbaycanın Avrasiya qaz dəhlizi layihəsi Çinlə Avropa İttifaqını müştərək işləməyə cəlb etdi ■ səh. 9 ■

Ermənistan İordaniyanı öz regional siyasətində vasitəyə çevirməyə çalışır - müsəlman həmrəyliyi çağırışlarına yeni laqeydlik nümunəsi... ■ səh. 8 ■

Paşinyanda «baş pozğunluğu» müzakirələri Ermənistanı bürüdü... ■ səh. 8 ■

■ səh. 5 ■ Ermənistan mediası Prezident İlham Əliyevin müşavirə çıxışına müstəsna maraq göstərdi - marağın arxasında nə dayanır...



■ səh. 4 ■ Deputatlığa namizədlərin bir çoxunun pul qazanmaq planı var - MSK namizədlərə pul vermir, bəs haradan...



■ səh. 6 ■ Azərbaycan Polisinin yeni geyim formasının əvvəlkindən üstünlükləri...



■ səh. 14 ■ Neft və qaz Azərbaycan xalqına xoşbəxtlik gətirə bildimi...



■ səh. 7 ■ İranda təyyarə vurulmasına dair yeni faktlar çıxır - ölkədəki həbslərin pərdəarxası...



**Azərbaycan XİN-dən "Bakı-Xəbər"ə daxil olmuş məlumata görə, Avropa Parlamentinin bu ilin 15 yanvar tarixində Strasburqda keçirilən plenar sessiyası zamanı "Birgə Xarici və Təhlükəsizlik Siyasətinin həyata keçirilməsi üzrə illik məruzə" (Annual report on the implementation of the Common Foreign and Security Policy) adlı qətnamə böyük səs çoxluğu ilə qəbul edilib.**



# Avropa Komissiyası üçün məcburi icra sənədi - beynəlxalq tanınmış sərhədlər daxilində Azərbaycanın ərazi bütövlüyünə daha bir mötəbər dəstək...

Sözügedən qətnamənin 36-cı bəndində Avropa İttifaqı "Şərq Tərəfdaşlığı"nın bütün üzv dövlətlərinin suverenliyi, ərazi bütövlüyü və siyasi müstəqilliyinə dəstəklə bağlı öz öhdəliyini növbəti dəfə təsdiqlədi.

Xüsusilə vurğulanmalıdır ki, qətnamədə ərazi bütövlüyü məsələsi beynəlxalq səviyyədə tanınmış sərhədlər ifadəsi ilə birgə təqdim edilir.

Sənəddə "Şərq Tərəfdaşlığı" ərazisindəki bütün münaqişələrlə bağlı vahid yanaşma nümayiş etdirilərək onların beynəlxalq hüququn norma və prinsiplərinə uyğun şəkildə həllinə, münaqişədən əziyyət çəkənlərə, o cümlədən, qaçqın və məcburi köçkünlərə dəstəyin artırılmasına dair çağırış öz əksini tapıb.

Qətnamədə Aİ-nin 2016-cı il tarixli Xarici və Təhlükəsizlik Siyasəti üzrə Qlobal Strategiya sənədinə və "Şərq Tərəfdaşlığı" ölkələrinin 2017-ci il Brüssel Zirvə Görüşünün yekun sənədinə istinad olunur.

Xatırladırıq ki, Aİ-nin Qlobal Strategiya sənədində dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı Avropa təhlükəsizliyinin mühüm elementi kimi qiymətləndirilib. 2017-ci il Brüssel Zirvə Görüşünün yekun sənədində də eynilə bütün "Şərq Tərəfdaşlığı" dövlətlərinin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə birmənalı dəstək ifadə olunub.

Qeyd etmək lazımdır ki, Avropa Parlamenti tərəfindən illik əsasda qəbul edilən bu qətnamə Avropa Parlamentinin il ərzində Avropa Komissiyasının fəaliyyətinə təsir edə biləcək məcburi xarakterli sənədlərindən biridir.

**Yanvarın 15-də Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi və Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya tərəfindən ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində 2019-cu il ərzində görülmüş işlər və qarşıda duran vəzifələrlə bağlı kütləvi informasiya vasitələri və qeyri-hökumət təşkilatları nümayəndələrinin iştirakı ilə mətbuat konfransı keçirilib.**

# Korrupsiyaya qarşı... idarəsi 83 milyon manatdan çox vurulmuş maddi ziyanın azı 74 milyon manatını ödətdirdi

Mətbuat konfransını giriş sözü ilə açan Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev bildirib ki, hesabat dövründə Baş İdarənin əməliyyat qurumları öz vəzifələrini uğurla icra edərək keçirdikləri əməliyyat tədbirləri nəticəsində 19 şəxs cinayət başında yaxalanıb, 17 nəfər axtarışda olan şəxs saxlanıb, əməliyyat üsul və vasitələrindən istifadə etməklə korrupsiya hüquqpozmaları barədə əldə edilmiş məlumatlar əsasında 49 cinayət işi başlanıb.

2019-cu il ərzində Baş İdarədə 497 şəxs barəsində 310 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərilib.

Həmin cinayət işlərindən 101 şəxs barəsində 59 iş qulluq mövqeyindən istifadə etməklə mənimsəmə və israf etmə, 69 şəxs barəsində 55 iş qulluq mövqeyindən istifadə etməklə dələduzluq, 36 şəxs barəsində 18 iş vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, 52 şəxs barəsində 20 iş rüşvət alma (passiv rüşvətxorluq), 68 şəxs barəsində 43 iş rüşvət vermə (aktiv rüşvətxorluq) və şəxsi rüşvət verməyə təhrik etmə, qalanları isə digər korrupsiya cinayətləri ilə bağlı olub.

Hesabat dövrü ərzində cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma faktları üzrə 7 cinayət işinin istintaqı tamamlanıb, hüquqi şəxslərə cinayət-hüquqi tədbirlərin tətbiq olunması barədə 3 cinayət işi üzrə 3 hüquqi şəxs barədə qərar qəbul olunaraq, hüquqi şəxslər və onların rəhbərliyi məhkəmə məsuliyyətinə verilib.

Məhkəmələrə göndərilmiş cinayət işləri üzrə 83.2 milyon manat məbləğində maddi ziyandan ibtidai araşdırma mərhələsində 21.8 milyon manatın ödənilməsi təmin edilib, həmçinin qalan ziyanın ödənilməsini təmin etmək məqsədilə 40.3 milyon manat dəyərində qiymətləndirilən əmlak üzərinə həbs qoyulmaqla, ümumilikdə vurulmuş maddi ziyanın 74.7 %-nin ödənilməsi təmin edilib.

O cümlədən, Mənzil Tikinti Kooperativlərinin vəzifəli şəxsləri və onlarla cinayət əlaqəsinə girmiş digər şəxslər tərəfindən ayrı-ayrı vətəndaşlara satılmış mənzilləri təkrar satmaqla dələduzluq yolu ilə özgələrinə məxsus külli miqdarda pul vəsaitlərinin ələ keçirilməsi faktları üzrə vurulmuş maddi ziyanın ödənilməsinin təmin edilməsi üçün aidiyyəti dövlət qurumları ilə birgə tədbirlər görülüb.

Çıxışında xüsusi aktuallığı ilə seçilən bəzi cinayət işlərinin istintaq gedişatına da toxunan K.Əliyev belə işlərdən biri kimi qida təhlükəsizliyi sahəsində qanunvericiliyin tələblərini pozmaqla saxta spirtli içki istehsalı ilə məşğul olmuş bir qrup sahibkarın son günlər cəmiyyətdə geniş ictimai rezonansa səbəb olan qanunsuz əməlləri barədə məlumat verərək, Baş İdarə tərəfindən həyata keçirilmiş təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri ilə qanunsuz olaraq müxtəlif çeşiddə saxta spirtli içkilər istehsal edərək paytaxtda və respublikanın müxtəlif bölgələrində satışını həyata keçirən 4 şəxsin Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edildiyini və barələrində məhkəmənin qərarları ilə həbs qətimkan tədbiri seçildiyini bildirib.



Hesabat dövründə Baş İdarə rəisi, Baş İdarə rəisinin müavinləri, idarə və şöbə rəisləri və növbətçi prokurorlar tərəfindən ümumilikdə 717 vətəndaş qəbul edilib.

Korrupsiyaya qarşı mübarizədə qabaqlayıcı tədbirlərin mühüm əhəmiyyəti nəzərə alınaraq, korrupsiya cinayətləri və hüquqpozmalarının yayıldığı sahələrin müəyyənləşdirilməsinə diqqət artırılmaqla preventiv tədbirlərin təsir gücünün məhz bu istiqamətlərə yönəldilməsinin səmərəliliyi son illərin təcrübəsi ilə bir daha öz təsdiqini tapmaqdadır.

Belə ki, əvvəlki dövrlərdə olduğu kimi, hesabat ilində korrupsiyaya qarşı mübarizə sahəsində bir sıra qabaqlayıcı tədbirlər həyata keçirilərkən 29 halda inzibati pozuntu aşkar edildiyindən, İnzibati Xətalar Məcəlləsinin 192, 198 və 228-ci maddələri ilə inzibati xəta haqqında iş üzrə icraatların başlanması haqqında qərarlar qəbul edilərək, toplanmış materiallar aidiyyəti üzrə müvafiq icra orqanlarına və məhkəmələrə göndərilib.

Araşdırmalar nəticəsində yol verilmiş qanun pozuntularının aradan qaldırılması və gələcəkdə təkrarlanmaması məqsədi ilə müxtəlif dövlət qurumları və vəzifəli şəxslərə 118 təqdimat göndərilmiş, 35 halda vətəndaş və ya vəzifəli şəxslərə rəsmi xəbərdarlıq edilib.

Vurğulanmışdır ki, ötən ildə Baş İdarə ilə Əmək və Əhalinin Sosial Müdafiəsi və İqtisadiyyat nazirlikləri, Dövlət Gömrük Komitəsi və Qida Təhlükəsizliyi Agentliyi arasında qurulmuş səmərəli və işgüzar əməkdaşlıq əlaqələri intensivləşib, bu da öz növbəsində qabaqlayıcı əhəmiyyətə malik olmaqla, həmin sahələrdə korrupsiya cinayətlərinin və digər hüquqpozmaların vaxtında aşkar edilməsinə, onların aradan qaldırılmasına, həmin qanun pozuntularına yol vermiş şəxslərin ifşa edilərək cinayət və inzibati məsuliyyətə cəlb edilmələrinə və bununla da digər şəxslər tərəfindən qanun pozuntusuna yol verilməsinin qarşısının alınmasına böyük töhfə verib.

Belə ki, 2019-cu il ərzində Baş İdarəyə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən daxil olmuş 32, Qida Təhlükəsizliyi Agentliyindən daxil olmuş 25, İqtisadiyyat Nazirliyindən daxil olmuş 21, Dövlət Gömrük Komitəsindən daxil olmuş 7 material əsasında araşdırma aparılıb və bir sıra hallarda cinayət işləri başlanıb.

Ötən il ərzində Baş İdarə tərəfindən korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlarla yanaşı, bu sahədə qabaqcıl və müsbət təcrübəyə malik olan ölkələrin ixtisaslaşmış antikorrupsiya qurumları ilə də ikitərəfli səmərəli əməkdaşlıq əlaqələrinin qurulması istiqamətində zəruri tədbirlər görülüb, Baş İdarə ilə Buenos-Ayres Muxtar Vilayətinin prokurorluğu və Tunisin Korrupsiyaya qarşı Mübarizə üzrə Milli Xidməti arasında korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumları, həmçinin Beynəlxalq Anti-Korrupsiya Akademiyası ilə Akademiyanın Təlimləri üzrə Magistr proqramının növbəti modulunun 2020-ci ilin aprel ayında Bakı şəhərində keçirilməsinə dair müvafiq sənəd imzalanıb.

Bundan əlavə, Özbəkistan, Belarus, Türkiyə, Çin, Litva, Qırğızıstan və digər ölkələrin antikorrupsiya və əlaqədar hüquq-mühafizə orqanlarının nümayəndə heyətləri təcrübə mübadiləsi məqsədilə Baş İdarəyə səfər edib.

*Baki-xeber.com*

# Prezident Azərbaycanın Avrasiyada yeni statusunu hədəflədi - nəqliyyat mərkəzi olduq, mütləq internet, rabitə və fiberoptik xətlərin də mərkəzinə çevrilməliyik

**Prezident İlham Əliyev yanvarın 15-də Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadəni qəbul edib. Prezident deyib:**

- Keçən il Azərbaycanda bütün sahələr kimi, nəqliyyat sahəsi də inkişaf etmişdir. Bu inkişaf həm real layihələrdə özünü göstərir, eyni zamanda, beynəlxalq təşkilatların hesabatlarında əksini tapır. Təkcə onu demək kifayətdir ki, keçən il avtomobil yollarının tikintisi istiqamətində rekord nəticə əldə edilmiş, 1300 kilometr avtomobil yolu çəkilmişdir. Beləliklə, həm şəhərlərarası nəqliyyatın işi yaxşılaşdırılmış, eyni zamanda, magistral yolların çəkilişi davam etdirilmiş, yüzlərlə kəndin yolu abadlaşdırılmış və yenidən qurulmuşdur.

Davos Ümumdünya İqtisadi Forumu Azərbaycanda nəqliyyat sahəsində görülmüş işlərə yüksək qiymət verib. Bütövlükdə Azərbaycanın nəqliyyat infrastrukturu Davosun hesabatında dünya miqyasında 31-ci yerdədir. Bu, kifayət qədər böyük göstəricidir. Bu göstəriciyə görə biz bir neçə inkişaf etmiş ölkəni də qabaqlamışıq. Avtomobil yollarının keyfiyyətinə görə biz dünyada 27-ci yerdəyik. Dəmir yolu nəqliyyatının səmərəliliyinə görə 11-ci, hava nəqliyyatının səmərəliliyinə görə isə 12-ci yerdəyik.

Yəni, əslində bu, onu göstərir ki, son vaxtlar nəqliyyat sahəsində aparılmış işlər ən yüksək qiymətə layiqdir. Bununla bərabər, keçən il çox önəmli dövlətlərarası layihələr icra edilmişdir. O cümlədən Azərbaycan-Rusiya sərhədində yeni avtomobil körpüsünün istifadəyə verilməsi çox böyük hadisədir. Çünki əvvəlki körpü 1950-ci illərdə tikilmişdi və demək olar ki, sıradan çıxmışdı. Yeni körpü Azərbaycan ilə Rusiya arasında həm nəqliyyat, həm ticarət əlaqələrinin inkişafına xidmət göstərəcək, eyni zamanda, bu körpü Şimal-Cənub nəqliyyat dəhlizinin tərkib hissəsidir. Hazırda Rusiya sərhədinə qədər yeni avtomagistral çəkilir və ilin sonuna qədər bu magistralın əsas hissəsi istismara veriləcəkdir.

Paralel olaraq, Astara şəhərindən İran sərhədinə qədər yeni magistralın çəkilişi nəzərdə tutulur. Bu məsələ İran tərəfi ilə razılaşdırılıb. Beləliklə, yük avtomaşınları Astara şəhərinə girmədən birbaşa İran istiqamətinə gedə biləcək və yeni avtomobil körpüsü də tikiləcəkdir. Bir neçə il bundan əvvəl iki ölkə arasında yeni dəmir yolu körpüsü tikilmişdir və Şimal-Cənub nəqliyyat dəhlizinin fəaliyyəti üçün bunun böyük əhəmiyyəti olmuşdur.

Əlbəttə, keçən il Şərq-Qərb nəqliyyat dəhlizi üzrə daha çox yük daşınmışdır. Bu da təbiidir, çünki Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsindən sonra bu istiqamətdə böyük canlanma var. Təkcə Şərq istiqamətindən yox, eyni zamanda, Rusiyadan Azərbaycan ərazisindən Türkiyə və Avropa istiqamətinə yüklərin daşınması müşahidə olunur və ildən-ilə bu yüklərin həcmi artacaq. Beləliklə, açıq dənizlərə çıxışı olmayan Azərbaycan beynəlxalq Avrasiya nəqliyyat mərkəzlərindən birinə çevrilmişdir.

Builki investisiya proqramında nəqliyyat sektorunun inkişafı üçün kifayət qədər böyük vəsait nəzərdə tutulub. Eyni zamanda, avtomobil yollarının, dəmir yollarının çəkilişi ilə bağlı konkret layihələr icra ediləcəkdir. Bu il Ləki-Qəbələ dəmir yolu istifadəyə veriləcək. Eyni zamanda, biz Bakı-Yalama və Xudat-Şahdağ dəmir yollarının layihələndirilməsinə və inşasına başlayırıq. Beləliklə, biz mövcud dəmir yollarının keyfiyyətini böyük dərəcədə artıracağıq və qatarların sürəti də buna uyğun olaraq artacaqdır.

Həmçinin biz şəhər nəqliyyatının inkişafına da böyük əhəmiyyət veririk. Bu il Bakı şəhərinə əlavə 300 müasir avtobus gətiriləcəkdir və bundan sonra da bu istiqamətdə işlər görüləcək. Eyni zamanda, mənim göstərişimlə yeni taksi avtomaşınları da gətiriləcək? İndi bizim digər məlidir. Bu məsələ ilə bağlı məlumat verin, kontraktlar imzalanıb, yoxsa yox və yeni taksilər şəhərimizə nə vaxt gətiriləcək? İndi bizim digər şəhərlərimizdə taksi xidməti hansı səviyyədədir?

Ramin Quluzadə: Cənab Prezident, biz regionlarda bu sahəyə daha çox diqqət yetirməliyik. Çünki regionlarda standartlara tam cavab verməyən nəqliyyat vasitələri var və biz bu istiqamətdə də öz işlərimizi aparırıq.

Prezident İlham Əliyev: Mən sizə tapşırıq verirəm ki, bu işləri ciddi təhlil edin. Hər bir şəhərdə nə qədər taksi fəaliyyət göstərir? Taksi avtomaşınlarının keyfiyyəti nə səviyyədədir? Təhlükəsizlik necə təmin edilir, hesablaşma necə aparılır? Biz elə etməliyik ki, bütün şəhərlərimizdə, ilk növbədə, böyük şəhərlərimizdə müasir taksi xidmətləri olsun. Müasir taksi dayanacaqları, sürücülərin hazırlanması, onların tibbi müayinədən keçməsi təşkil olunmalıdır. Hər bir sahədə olduğu kimi, bu sahədə də biz nağd hesablaşmadan kartla hesablaşmaya keçməliyik, taksometrlər quraşdırılmalıdır. Yəni, təkcə Bakıda yox, ilk növbədə, bütün böyük şəhərlərdə və ondan sonrakı mərhələdə digər şəhərlərdə.

Bu, eyni zamanda, avtobus nəqliyyatına da aiddir. Çünki hazırda Bakı və Sumqayıt şəhərlərində avtobusla sərnişin daşımaları müasir standartlara uyğundur. O da hər yerdə deyil. Hələ də Bakı şəhərində keyfiyyəti yüksək olmayan və istismar müddəti bitmiş avtobuslar fəaliyyət göstərir. Bu məqsədlə biz hər il ölkəmizə 300 avtobus gətizdiririk. Mənə verilən məlumata görə, Gəncə şəhərində avtobus təsərrüfatı köhnəlib. Digər şəhərlərdə nə qədər avtobus fəaliyyətdədir, nə qədər avtobus alınmalıdır? Əlbəttə ki, ilk növbədə, paytaxt Bakının bu məsələsi həll olunmalıdır. Amma digər şəhərlər də diqqətdən kənarda qalmamalıdır.

Şəhərlərarası nəqliyyat məsələsi öz həllini necə tapır və bu sahədə hansı problemlər, hansı nailiyyətlər var?

Ramin Quluzadə: Möhtərəm cənab Prezident, biz bir ay öncə şəhərlərarası gecə reyslərini istifadəyə verdik. Əsas məqsədimiz odur ki, bizim vətəndaşlar təkcə gündüz yox, eyni zamanda, gecə reyslərindən də istifadə etsinlər. Biz bu reysləri müasir standartlara cavab verən "MAN" tipli avtobuslarla həyata keçiririk. Eyni zamanda, biz bu gün mövcud avtobus parkını daha müasir standartlar səviyyəsində yeniləyirik. Artıq biz standartları təkmilləşdiririk. Gələcəkdə də biz iş adamları ilə bu standartlarla bağlı işlər aparacağıq.

Prezident İlham Əliyev: Bu da çox önəmli məsələdir. Çünki indi yolların keyfiyyəti artdıqca, şəhərlərarası marşrutlar yeni avtobuslarla təmin edilir. Əlbəttə ki, bu avtobuslar ən yüksək təhlükəsizlik normalarına uyğun olmalıdır. Bir halda ki, siz gecə reyslərinə başlamısınız, bu avtobusların keyfiyyəti, təhlükəsizliyi, sürücülərin hazırlığı, onların müayinədən keçmələri - bütün bunlar mütləq diqqət mərkəzində olmalıdır. Bu sahədə də təftiş aparılmalıdır, avtobusların neçə faizi standartlara tam cavab verir? Bu sahədə daha çox özəl şirkətlər fəaliyyət göstərir. Onlara da dəstək göstərilməlidir ki, bu istiqamətdə öz fəaliyyətlərini daha yüksək səviyyədə təmin edə bilsinlər.

Bir məsələ də yük daşımaları ilə bağlıdır. Azərbaycandan xaricə gedən yüklərin həcmi artır və artacaq. Qeyri-neft sektorumuz artır, qeyri-neft ixracımız keçən il 14 faiz artıbdır. Ancaq bizim bir çox yüklərimizi xarici şirkətlər daşıyır. Bu da onunla bağlıdır ki, Azərbaycanda yük daşımalarında istifadə edilən avtomaşınlar, tırlar yerli şirkətlər tərəfindən az təmin olunur. Ona görə bu məsələyə də diqqət yetirmək lazımdır. Birinci növbədə, təhlil aparılmalıdır və mənə məruzə edilməlidir ki, yük daşımalarının neçə faizi Azərbaycan şirkətləri tərəfindən icra edilir? Tır parkına baxış keçirilməlidir. Onların vəziyyəti nə yerdədir və onların sayı bizim artan istehsalımıza uyğundur, yoxsa yox?! Əgər yeni tır maşınlarının alınmasında dövlət özəl şirkətlərə kömək edə bilərsə, biz buna hazırıq. Bu sahəyə də güzəştli kreditlər verilə bilər. Çünki bir halda ki, Azərbaycanın nəqliyyat sektoru yüksək templərlə inkişaf edir və beynəlxalq təşkilatlar bunu yüksək qiymətləndirir, nəqliyyat sektorunda bütün komponentlər yüksək standartlara cavab verməlidir. Əlbəttə, hər bir ölkə istəyir ki, onun yükləri yerli şirkətlər tərəfindən daşınsın. Ona görə bu məsələ ilə bağlı sizə tapşırıram, təhlil aparın və məlumat verin.

Ötən ilin noyabr ayında Qazaxıstanda bu ölkə ilə Azərbaycan arasında yeni rabitə xəttinin çəkilməsinin təməlqoyma mərasimi keçirilmişdir. Bu da çox önəmli layihədir. Azərbaycan rabitə və yüksək texnologiyalar sahəsində böyük uğurlar əldə edib. Ənənəvi "Bakutel" sərgisi çox böyük diqqət cəlb edir.



Bu il bu istiqamətdə hansı işlər görüləcəkdir, bu barədə məlumat verin.

Ramin Quluzadə: Möhtərəm cənab Prezident, Bakı ilə Qazaxıstanı birləşdirən fiberoptik kanal gələcəkdə Avropanı və Asiyanı birləşdirən bir xətt olacaq. Bu da imkan yaradacaq ki, biz gələcəkdə Avropadan Çinə və digər ölkələrə interneti Azərbaycanın üzərindən ötürək. Gələcəkdə Azərbaycan və digər ölkələrdə internetə olan tələbatın ödənilməsi və keyfiyyətli internetdən istifadə üçün bu işlər görüləcək. Eyni zamanda, qeyd etmək istəyirəm ki, artıq hər il "Bakutel" sərgisinə də maraq artır. Siz də oraya gələndə görürsünüz ki, həm yerli şirkətlərimizin, həm də startapların bu sahəyə marağı artır. Gələcəkdə də bu cür tədbirlərin keçirilməsi nəzərdə tutulur.

Prezident İlham Əliyev: Buna da çox diqqət yetirmək lazımdır. "Bakutel" artıq 20 ildən çoxdur keçirilir və regionda əsas sərgi və konfransdır. Bu sərgi və konfransda adətən Beynəlxalq Telekommunikasiya İttifaqının rəhbəri də iştirak edir. Bu təşkilatın rəhbərləri mənimlə görüş əsnasında daim Azərbaycanda bu sahədə görülən işlərə yüksək qiymət verirlər. Bir halda ki, Azərbaycan artıq Avrasiyanın önəmli nəqliyyat mərkəzlərinin birinə çevrilib, ölkəmiz mütləq rabitə, internet və fiberoptik rabitə xətlərinin çəkilməsi istiqamətində də mərkəzə çevrilməlidir. Ona görə ötən ilin noyabrında Qazaxıstanda keçirilmiş təməlqoyma mərasimi xüsusi əhəmiyyət daşıyır. Əminəm ki, bu xəttin çəkilişi tezliklə təmin ediləcəkdir. Bunun uzunluğu 400 kilometrdir. Eyni zamanda, Azərbaycanda internet istifadəçilərinin sayı getdikcə artır və artıq 80 faizə çatıbdır. Keyfiyyətli interneti təmin etmək üçün əlavə vəsait də nəzərdə tutulmalıdır.

Beləliklə, bu il bu sahədə görüləsi işlər çoxdur. Ancaq sevindirici hal ondan ibarətdir ki, artıq gözəl nəticələr əldə edilib və biz bundan sonra yalnız inkişaf yolu ilə gedəcəyik. Azərbaycan həm nəqliyyat, həm rabitə, həm də yüksək texnologiyalar sahəsində bundan sonra da regionda liderlik mövqelərini qorumalıdır və biz öz potensialımızı artırmalıyıq.

# ABŞ Konqresi 20 Yanvarla bağlı bəyanat verdi...

***Rauf Zeyni:** "Verilən bəyanatı münasibətlərimizin ruhuna tam uyğun sayıram"*

**ABŞ Konqresinin Nümayəndələr Palatası 20 Yanvar faciəsinin 30 illiyi ilə bağlı bəyanatla çıxış edib. Ölkəmizin ABŞ-dakı Səfirliyindən bildiriblər ki, bəyanatda Azərbaycanda "Qara Yanvar" kimi yadda qalan faciənin 1990-cı ilin yanvar ayında baş verdiyi, o zamankı SSRİ rəhbərliyinin ölkəmizdə azadlığı boğmağa və Azərbaycan xalqına öz siyasi iradəsini yeritməyə cəhd göstərdiyi diqqətə çatdırılır.**

O vaxt Azərbaycan xalqının sovet əsarətindən təngə gəldiyi və onunla mübarizə əzmini nümayiş etdirdiyi bildirilir.

Qeyd olunur ki, Azərbaycan xalqının sülhpərəst azadlıq çağırışlarına sovet rəhbərliyi silah və tanklarla cavab verdi. Bunun nəticəsində 147 nəfər mülki şəxs qətlə yetirildi, yüzlərlə insan yaralandı və həbs olundu. Sovet İttifaqında əvvəlki müstəqillik hərəkatlarına qarşı qəddarlıqlara rəğmən, azərbaycanlıların əzmkarlıq və qətiyyət nümayiş etdirdiyi, faciənin onlara qüvvə verdiyi və bu mübarizənin 1991-ci ilin oktyabrında müstəqilliyə gətirib çıxardığı diqqətə çatdırılır. Bildirilir ki, müstəqilliyin elan edilməsindən sonra Azərbaycan regionda azadlıq mayakı rolunu oynadı, ABŞ-la dost və müttəfiq oldu. Bəyanatda, həmçinin, faciə zamanı həlak olanların xatirəsi yad edilir və Azərbaycan Respublikasının davamlı inkişafı qeyd olunur, Azərbaycanın müttəfiq rolu və azadlıq yolunda səyləri bir daha vurğulanır.

20 Yanvar faciəsi ilə bağlı ABŞ-ın nüfuzlu təsisatının qəbul etdiyi bu bəyanatı necə dəyərləndirmək olar?

Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni qəzetimizə açıqlamasında bildirdi ki, ABŞ Konqresinin verdiyi bu bəyanatı təqdir etmək lazımdır: "20 Yanvar faciəsi bəşəriyyətin tarixinə qanlı hərflərlə yazılmış hadisədir. Kifayət qədər insanın öldüyü və yaralandığı həmin hadisənin motivi sadə deyil. Yəni həmin insanlar başqa ölkə ilə müharibədə ölməyiblər. Ölkəmizin müstəqilliyini və azadlığını tələb edən adamlar tanklarla əzilib, güllələnib.

ABŞ dünyanın super dövlətidir və özünü demokratiyanın çarçısı adlandırır. Bakıda baş verən qanlı hadisə də demokratiya və azadlıq tələbinə görə olub. Yəni ABŞ bu cür hadisələrə



daha sərt reaksiya verməlidir. Çünki dinc insanlar qətlə yetirilib. Azərbaycan ABŞ-la münasibətlərdə daim sadiqliyini nümayiş etdirib. ABŞ-ın rəhbərliyi ilə həyata keçirilən bütün antiterror koalisiyalarında yaxından iştirak edib. Bu baxımdan da verilən bəyanatı münasibətlərimizin ruhuna tam uyğun sayıram. Artıq faciənin üstündən 30 il keçir. Nə qədər böyük zaman keçsə də, biz onu unudulmağa qoymayacağıq. Verilən bu bəyanat bir daha sübut edir ki, insanlığa qarşı törədilən cinayətlər heç vaxt yaddaşlardan silinmir. Çox təəssüflər olsun ki, 20 Yanvar faciəsini törədənlər hələ də layiqli cəzalarını almayıblar. Ümid edirik ki, artıq bütün bəşəriyyətin diqqətini cəlb edən bu faciəyə lazımi hüquqi qiymət veriləcək. Doğru olaraq qeyd edilir ki, 20 Yanvar bütün keçmiş SSRİ respublikalarının azadlığı üçün mayak oldu. Əminəm ki, hətta uzun illər ötsə belə, xalqımızın 20 Yanvar fədakarlığı fəxrlə xatırlanacaq".

***Məhəmmədəli QƏRİBLİ***

# Deputatlığa namizədlərin bir çoxunun pul qazanmaq planı var - MSK namizədlərə pul vermir, bəs haradan...

***Məhərrəm Zülfüqarlı:** "Artıq MSK namizədlərin seçki kampaniyasına maliyyə vəsaiti ayırmır"*

**Fevralın 9-da ölkəmizdə keçiriləcək növbədənkənar parlament seçkilərində deputatlığa namizədlərin sayı 1000-ni çoxdan ötüb. Vətəndaşların kütləvi olaraq maraq göstərdiyi və qatıldığı parlament seçkilərində hansı namizədin deputat kürsüsündə oturacağı hələ məlum deyil.**

*"Elə namizədlər var ki, onlar namizədliklərini dairədəki daha şanslı, güclü namizədlə bazarlığa getmək, pul qazanmaq üçün veriblər"*

Məlum olan odur ki, insanlar deputat olmaq iddiasını ortaya qoyurlar. Parlament seçkilərinə qatılan bəzi şəxslərin, əslində, məqsədi heç də deputat olmaq deyil, onların prosesdə iştirak etməkdə pul qazanmaq niyyəti güddükləri deyilir. Hətta bir sıra namizədlər "MSK-dan seçki kampaniyası üçün ayrılan pulu alıb xərcləyəcəyəm, deputatlıq nəyimə lazımdır", bəziləri isə "özümdən güclü namizədlə bazarlıq edib pulumu götürüb meydandan çıxacağam" deyirlər.

Onu da vurğulayaq ki, artıq sosial şəbəkələrdə bəzi deputatlığa namizədlər namizədliklərini rəqiblərinin xeyrinə geri götürdüklərini bəyan edirlər. Onlar arasında sosial şəbəkələrdə zaman-zaman deputatlıq iddiasını ortaya qoyanlar da var.

MSK deputatlığa namizədlərin seçki kampaniyası üçün vəsait ayırırmı?

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının Seçki Qərargahının rəhbəri, professor Məhərrəm Zülfüqarlı "Bakı-Xəbər"ə bildirdi ki, MSK deputatlığa namizədlərə, ümumiyyətlə, vəsait ayırmır, onlar seçki kampaniyalarını öz vəsaitləri hesabına aparmalıdırlar: "Olduqca maraqlı və vacib bir məsələni gündəmə gətirmisiniz. 2005-ci ildə MSK parlament seçkilərində iştirak edən namizədlərin seçki kampaniyası üçün vəsait ayırırdı. O zaman elə dairə vardı ki, orada 28-30, daha artıq namizəd vardı. 2005-ci ildə parlament seçkilərində iştirak edən namizədlər arasında elələri vardı ki, onlar MSK-nın ayırdığı pulu əldə etmək üçün na-



mizədliklərini irəli sürürdülər. Bu faktlar vardı. Artıq MSK namizədlərin seçki kampaniyasına maliyyə vəsaiti ayırmır. Azərbaycanda daha seçki kampaniyasını hər bir namizəd özü aparır. Beynəlxalq təcrübəyə görə, seçkilərdə namizəd kimi iştirak edən adamın üç resursu olmalıdır. Maliyyə, insan resursu və s. olmayan namizədin qələbə çalmaq şansı yoxdur".

M.Zülfüqarlı qeyd etdi ki, hazırda seçkilərdə iştirak edən bir sıra namizədlər MSK-dan pul almaq üçün deyil, başqa yolla pul qazanmaq üçün prosesə qatılıblar. "Çox təəssüf, bir sıra insanlar namizədliklərini ona görə verirlər ki, pul qazansınlar. Elə namizədlər var ki, onlar namizədliklərini dairədəki daha şanslı, güclü namizədlə bazarlığa getmək, pul qazanmaq üçün veriblər. Bəziləri namizədliyini ona görə veriblər ki, daha güclü rəqiblə bazarlığa girib namizədliyini onun xeyrinə geri götürsünlər. Belələri az deyil" - deyə M.Zülfüqarlı vurğuladı.

***İradə SARIYEVA***

# Ermənistan mediası Prezident İlham Əliyevin müşavirə çıxışına müstəsna maraq göstərdi - marağın arxasında nə dayanır...

**Məlum olduğu kimi, Prezident İlham Əliyev son müşavirədə Azərbaycanla Ermənistanı müqayisə edərək çoxsaylı fakt ortaya qoyub. Prezident bildirib ki, əksər parametrlər üzrə ölkəmiz Ermənistanı üstələyir: "Ermənistanın baş naziri öz ölkəsinin dırnaqarası uğurları haqqında danışarkən Ermənistanı Azərbaycanla müqayisə edir.**



## *Seyid Camal Əzimbəyli: "Burada bir neçə niyyət ola bilər"*

Onun gəldiyi qənaətə görə, Ermənistan Azərbaycanı bir çox parametrlər üzrə qabaqlayır. Bəri başdan bildirirəm və bunu heç sübut etməyə ehtiyac yoxdur ki, belə bir fərziyyənin heç bir əsası yoxdur. Azərbaycan Ermənistanı bütün əsas parametrlər üzrə böyük fərqlə qabaqlayır".

Prezidentin çıxışından məlum olub ki, Azərbaycan 2011-ci ildə 155 ölkənin dəstəyilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilib. Ancaq Ermənistanın quruma üzv olmaq niyyəti baş tutmayıb. Digər tərəfdən, güclü orduların reytinqində Azərbaycan 52-ci, Ermənistan isə 96-cı yerdədir. O cümlədən, hava gücü üzrə Azərbaycan 63-cü, Ermənistan 86-cı yerdədir. Dəniz gücü üzrə Azərbaycan 67-ci yerdədir, Ermənistanda dəniz yoxdur. Tank gücü üzrə Azərbaycan 32-ci, Ermənistan 78-ci yerdədir. 2019-cu ildə Azərbaycanın ümumdaxili məhsulu dollar ekvivalentində 47,6 milyard dollardır, Ermənistanda isə cəmi 13 milyard dollar. Adambaşına düşən ümumdaxili məhsul Azərbaycanda 4800 dollar, Ermənistanda 4500 dollardır.

Maraqlı məqamlardan biri odur ki, erməni mediası Prezident İlham Əliyevin son müşavirədə səsləndirdiyi fikirlərə yer verib. Bəzi KİV-də onun fikirləri öz əksini tapıb. Adətən, düşmən ölkə Azərbaycanla bağlı

*"Erməni mətbuatı bununla özünü demokratik imicdə təqdim etmək istəyir"*

yalan və qərəzli xarakterli informasiyalara yer verir. O baxımdan ölkə başçısının çıxışının verilməsində maraq nədir? Sözügedən çıxışa niyə bu qədər yer ayrılır?

Məsələyə münasibət bildirən şərqşünas Seyid Camal Əzimbəylinin sözlərinə görə, artıq bəzi erməni dairələri də Azərbaycandakı inkişafı etiraf etmək məcburiyyəti ilə üzləşiblər: "Əvvəllər Azərbaycan barəsində ancaq neqativ yüklü məlumatlara önəm verirdilər. Düşmən ölkə indi də bu iyrənc media siyasətini davam etdirir. Ancaq, görünür, indi bəzi erməni media orqanları bir qədər özünü fərqli göstərmək istəyirlər. Ona görə də burada bir neçə niyyət ola bilər. Biri odur ki, erməni mətbuatı bununla özünü demokratik imicdə təqdim etmək istəyir. Guya Ermənistan mətbuatı obyektivdir və qarşı tərəfin fikirlərinə də yer verir.

Bununla dünya ictimaiyyətini aldatmaq niyyətindədirlər. Digər tərəfdən, Azərbaycanın iqtisadi sahədə əldə etdiyi uğurları beynəlxalq təşkilatlar da təsdiq edir. Hansı ki, müşavirədə səslənən rəqəmlər beynəlxalq hesabatlarda da yer alıb. Görünür, artıq Azərbaycanın əldə etdiyi uğurlara heç cür kölgə sala bilmirlər. Çünki Azərbaycanın bütün parametrlərə görə Qafqazda lider ölkə olduğu faktı ortadadır".

***Vidadi ORDAHALLI***

# AŞPA qərəzlə yanaşdığı Azərbaycanda siyasi məhbus məsələsinə yeni ad tapıb - "sistem xarakterli"...

**AŞPA-nın qış sessiyasının gündəliyinə "Azərbaycanda siyasi məhbuslarla bağlı məlumatlar haqqında iş" məsələsi daxil edilib. Azərbaycanda siyasi məhbuslar üzrə məruzəçi, islandiyalı deputat Torhildur Sunna Evarsdottirin tərtib etdiyi müvafiq qətnamə layihəsi yanvarın 27-də müzakirə olunacaq.**

## *"Bunlardan siyasi manipulyasiya məqsədilə istifadə edirlər"*

## ***Azər Həsrət:*** *"Azərbaycanda "sistem xarakterli" siyasi məhbus probleminin olduğunu demək absurddur"*

Məruzədə Azərbaycanda "sistemli xarakter" daşıyan siyasi məhbus problemi ilə bağlı ciddi narahatlıq ifadə olunub. Bildirilir ki, hələ 2001-ci ildə Azərbaycan Avropa Şurasına daxil olarkən AŞPA Bakını "siyasi məhbusları azad etməyə və ya onların işlərinə məhkəmə qaydasında yenidən baxmağa" çağırıb. AŞPA-nın bu məsələ ilə bağlı bir neçə qətnaməsinə baxmayaraq, guya sözügedən problem indiyədək qalmaqdadır.

Hansı ki, Azərbaycan Avropa Şurasına üzv qəbul olunandan sonra bu məsələ öz həllini tapıb. Nəticədə bütün "siyasi məhbus" adlandırılan şəxslər azad edilib. Bundan başqa, ölkə qanunvericiliyi daha da təkmilləşdirilib. Söz və ifadə azadlığı məsələsində yeni-yeni imkanlar yaranıb. Ancaq görürük ki, bəzi dairələr süni şəkildə siyasi məhbus məsələsini qabartmağa çalışırlar. Hər seçki ilində bənzər ənənəvi təzyiqləri işə salırlar. Çox güman ki, bu da onlardan biridir. Təzə "yanaşma" ortaya qoyurlar. Guya Azərbaycanda siyasi məhbus məsələsi "sistem xarakterli"dir.

Məsələyə münasibət bildirən media eksperti Azər Həsrətin sözlərinə görə, "sistem xarakterli" siyasi məhbus problemi bir uydurmadır: "Özü də AŞPA-nın uydurması. Zamanlamanın indi seçilməsi təsadüfi deyil. Məlum olduğu kimi, Azərbaycan parlament seçkilərinə hazırlaşır. Yanvarın 17-də təşviqat kampaniyasının aktiv dövrü başlayır. Parlament üzvlərinin xeyli hissəsi, xüsusən də AŞPA-da təmsil olunanlar deputatlığa namizəddirlər. Onların başı seçkiyə qarışıb. Alınan qərara görə, onlar gedib AŞPA-da toplantıya qatıla bilməyəcəklər. Faktiki olaraq, Azərbaycanın iştirakı olmadan sözügedən məsələ müzakirə ediləcək. Çox güman ki, yanvarın 27-ni seçənlər




bunu da nəzərə alıblar. O mənada ki, Azərbaycan həmin müzakirələrdə iştirak edə bilməsin. Ona görə də guya Azərbaycanda "sistem xarakterli" siyasi məhbus probleminin olduğunu demək absurddur. Çünki Azərbaycanda, ümumiyyətlə, dövlətin siyasi mənsubiyyətinə görə insanları həbs etməsi kimi bir praktika yoxdur. Sadəcə olaraq müəyyən səbəblərdən həbsə düşən adamlar iddia edirlər ki, guya onlar siyasi mənsubiyyətinə görə həbs olunublar. Hətta elə adamlar içərisində şəxsən tanıdıqlarımız da olur. Məsələn, sənəd saxtalaşdırdığına görə həbsə düşən bir şəxs var idi. Götürüb onu siyasi məhbus elan ediblər. Deməyim odur ki, bunlardan siyasi manipulyasiya məqsədilə istifadə edirlər. AŞPA kimi qurumlar da həmin manipulyasiyanın aləti olurlar. Bu da səbəbsiz deyil. Çünki bizim AŞPA-da işləyən deputat kontingentimiz yetərincə bu işləri idarə edə bilmir. Əvvəlki deputat heyətimiz bu cür platformalarda gözlədiyimiz fəallığı göstərə bilməyib. Ancaq, istənilən halda, biz Azərbaycan vətəndaşı olaraq bu cür məsələlərə biganə qalmayacağıq. İstənilən beynəlxalq qurum bizi ədalətsiz tənqid edəcəksə, cavabını alacaq".

***Vidadi ORDAHALLI***

# Azərbaycan Polisinin yeni geyim formasının əvvəlkindən üstünlükləri...

**Bayır xidmətində olan polisləri, eləcə də Yol Patrul Xidməti əməkdaşlarını illərlə gözümüz öyrəşdiyi ənənəvi uniformada deyil, artıq dizayn, rəng və vizual baxımdan fərqli bir formada görürük. Bu, bayır xidmətində olan Yol Polisinin geyim tərzində baş verən yenilənmə ilə əlaqədardır.**

Artıq Yol Polisi və digər bayır xidməti ilə məşğul olan polislər yeni uniformada xidmətlərini davam etdirməyə başlayıblar.

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin rəisi, polis polkovniki Ehsan Zahidov mətbuata açıqlamasında bildirib ki, yeni formanın tətbiqi Azərbaycan Prezidenti İlham Əliyevin daxili işlər orqanlarına göstərdiyi diqqət və qayğının daha bir təzahürüdür: "Bu yenilik dövlət başçısının Daxili İşlər Nazirliyinin rəhbərliyinə verdiyi göstərişin icrası ilə əlaqədar oldu. Belə ki, göstərişdə bayır xidmətində olan polis əməkdaşlarının daha müasir və rahat, həmçinin, daha keyfiyyətli materialdan olan yeni geyim forması ilə təmin olunması tələb olunurdu. Bununla əlaqədar DİN tərəfindən müvafiq tədbirlər görüldü və artıq bildiyiniz kimi, ötən gündən başlayaraq Yol Patrul Xidməti əməkdaşları bu müasir xüsusi geyim formasından istifadə edirlər. Yaxın vaxtlarda bayır xidmətində olan digər polis əməkdaşları da bu forma ilə təmin ediləcəklər. Yeni formaları müasirliyindən və yüksək keyfiyyətindən əlavə, həm də bayır xidmətində olan əməkdaşlarımızın təhlükəsizliyi baxımdan da önəmlidir. Belə ki, gecə vaxtı bu formalar həm də işıq əksetdirmə qabiliyyətinə malikdir".

Onu da vurğulayaq ki, hələ 2019-cu ildən Respublika Dövlət Yol Polisi İdarəsi yol patrul xidməti əməkdaşlarına yeni uniformaların verilməsinə başlanıb. Lakin həmin dövrdə paytaxtda bütün Yol Polisi əməkdaşları yeni formalarda fəaliyyət göstərmirdi, amma bu gün onlar vahid uniformadan istifadə edirlər.

*Şəmsəddin Əliyev: "...təhlükənin qarşısını ala bilmək istiqamətində əvvəlcədən xəbərdaredici bir geyim forması xüsusiyyətinə malikdir"*




*"Əvvəlki formadan fərqli olaraq, yeni geyim həm Bakının, bütövlükdə isə respublikamızın iqlim şəraitinə uyğunlaşdırılıb"*

Yol Polisinin yeni geyim formasının əvvəlkilərdən üstünlükləri nədir?

"Polisə Dəstək" İctimai Birliyinin rəhbəri Şəmsəddin Əliyev hesab edir ki, bayır xidmətində olan polis əməkdaşlarına verilən yeni geyimin üstün cəhətləri çoxdur. O hesab edir ki, bu geyim tərzi həm Azərbaycanın qoşulduğu beynəlxalq sənədlərə, həm də ölkəmizin iqlim şəraitinə uyğundur. "Azərbaycan həm Konstitusiya üzrə, həm də müasir tələbə uyğun dünyəvi bir dövlətdir. Biz bütün sahələrdə dünyanın müsbət dəyərlərinə inteqrasiya edirik. Bayır xidmətində olan Yol Polisinin, eləcə də Yol Patrul Xidməti əməkdaşlarının geyiminin dəyişdirilərək müasirləşdirilməsi çox müsbət bir haldır. Buna zərurət vardı. Müasir Yol Polisinin geyimi günün tələblərinə cavab verməlidir. Azərbaycanda polislərin geyiminin dəyişdirilməsi, onların yeni geyimdən istifadə etməsi, həmçinin, Avropa polisinin geyim formasına uyğun olmasının təzahürüdür. Burada düşünürəm ki, Yol Patrul Xidməti əməkdaşlarının yeni geyimi sürücülər üçün də xoşdur. Onların əvvəlki geyimi tünd rənglərdən seçilmişdi və bu, sürücülərə qarşıda polisin olduğunu hiss etdirmirdi. Yeni geyim formaları isə işıqlı rənglərdən seçilib, qaranlıqda işıq verir və sürücü qarşıda polisin olduğunu bilir. Bayır xidmətində olan polisin yeni geyiminin əvvəlki geyimdən üstünlüyünün bir göstəricisi də odur ki, bu geyimlər hərəkətin təhlükəsizliyinə bir işarə verməsidir. Yəni artıq sürücü qarşıda polisin olduğunu bilir və idarəetməni tənzimləyə, qəlibə sala bilər. Bu baxımdan da bu geyimin üstünlükləri çoxdur. Bu, vaxtında, zamanında atılan addımdır".

Ş.Əliyev onu da vurğuladı ki, polisin geyiminin dəyişməsi, həmçinin, bu sahədə həyata keçirilən islahatların davamıdır. "Polisin yeni uniforması baş verə biləcək təhlükənin qarşısını ala bilmək istiqamətində əvvəlcədən xəbərdaredici bir geyim forması xüsusiyyətinə malikdir. Əvvəlki uniformadan fərqli olaraq, yeni forma həm Bakının, bütövlükdə isə respublikamızın iqlim şəraitinə uyğunlaşdırılıb.

**Bilirsiniz ki, Bakı çox küləkli şəhərdir və bayır xidmətində olan polislər də daim bayırda xidmət göstərdikləri üçün, onların uniforması da iqlim şəraitinə uyğun olmalıdır. Artıq yeni formada iqlim şəraiti də ciddi şəkildə nəzərə alınıb. Polis sahəsində bayır xidməti ən mürəkkəb xidmət sahəsidir. Onlar saatlarla günəşin, küləyin, yağışın altında qalırlar. Bu baxımdan həm də yeni geyimlər polisin sağlamlığını qoruyan bir formadadır. Düşünülmüş şəkildə tətbiq edilən bu geyim formasının yalnız müsbət tərəfləri var" - deyə Ş.Əliyev qeyd etdi.**

***İradə SARIYEVA***

# İranda təyyarə vurulmasına dair yeni faktlar çıxır - ölkədəki həbslərin pərdəarxası...

**Ukrayna Baş Prokurorluğu Ukraynanın Beynəlxalq Hava Yollarına məxsus təyyarənin İranda vurulması ilə bağlı cinayət işinin məzmununu dəyişdirib. İndi istintaq iki və ya daha çox insanın qəsdən öldürülməsinə və təyyarənin məhv edilməsinə görə məsuliyyət haqqında maddələrə uyğun olaraq davam edəcək.**

Bu qərar tərəfdaşların, habelə faciənin baş verdiyi yerdə işləyən ukraynalı mütəxəssislərdən alınan məlumatların yoxlanılması əsasında qəbul edilib.

Xatırladaq ki, Ukraynaya məxsus sərnişin təyyarəsi Tehran yaxınlığında raketlə vurulub, 176 nəfər həyatını itirib. İranın İslam Keşikçiləri Korpusu təyyarəni səhvən vurduğunu etiraf edib. İranın Ədliyyə Nazirliyi 176 sərnişinli Ukrayna təyyarəsinin vurulması ilə bağlı həbslər edildiyini bəyan edib.

Bəyanat sərnişin təyyarəsinin vurulması və rəsmilərin qəzanın səbəblərini ört-basdır etməsi səylərinə etiraz olaraq, İranda günlərdir davam edən aksiyalar fonunda verilib.

İnternetdə yerləşdirilən videolarda görünür ki, Tehranda və İranın digər şəhərlərində nümayişlər keçirən etirazçılar hökumət əleyhinə şüarlar səsləndiriblər. Daha əvvəl təyyarənin vurulduğunu inkar edən rəsmi Tehran ötən şənbə günü təyyarənin vurulduğunu etiraf edib.

Bundan əvvəl İran Prezidenti Həsən Ruhani Ukrayna təyyarəsinin vurulmasına görə məsuliyyət daşıyanların cəzalandırılacağına söz verərək, insidenti "bağışlanılmaz" adlandırıb.

İran Dövlət Televiziyasında çıxış edən Ruhani xüsusi məhkəmənin yaradılmasına çağırıb və deyib ki, bütün dünya bunu izləyəcək: "Biz bu insidentin bütün tərəflərini araşdırmağa, buna görə məsuliyyət daşıyanları cəzalandırmağa və insanları bu kimi insidentlərin bir daha baş verməyəcəyinə əmin etməkdə davam edəcəyik" .

İran Prezidenti hökumətin qəza ilə əlaqədar İran xalqı və digər millətlər qarşısında məsuliyyət daşıdığını bildirib.

İran Baş Prokurorluğunun sözçüsü Qulamhüseyn İsmaili yaydığı açıqlamada qəza ilə əlaqədar bəzi şəxslərin saxlandığını bildirib. Lakin saxlananların kim və neçə nəfər olduğu məlum deyil. İranın İnqilab Keşikçiləri Korpusunun aviasiya şöbəsinin rəhbəri Əmir Əli Hacızadə təyyarənin vurulmasının tam məsuliyyətini üzərinə götürüb. O deyib ki, "kaş mən öləydim".

Ukraynanın paytaxtı Kiyevə istiqamət alan təyyarədə 167 sərnişin və uçuş heyətinin 9 üzvü olub. Onlardan 82-si iranlı, 57-si kanadalı, 11-i ukraynalı olub. Sərnişinlərin bir çoxu ikili vətəndaşlığa malik olub. 1-i körpə olmaqla bir neçə uşaq hadisə qurbanları arasındadır. Təyyarə ilə bağlı yaşanan hadisələrin sonu nə ilə nəticələnə bilər?

**Mehman Muradlı:** *"Hansısa yüksək rütbəli hərbçisini Ukrayna və ya Kanadaya verməyəcək ki, aparıb mühakimə etsinlər"*



Hüquqşünas Mehman Muradlı qəzetimizə açıqlamasında bildirdi ki, bununla bağlı araşdırmalar uzun çəkəcək: "Ukraynada cinayət işi qaldırılıb. Hadisə zamanı həlak olanların arasında İrandan sonra sayca ikinci Kanada vətəndaşları olub. Yəni gözlənilləndir ki, həmin ölkədə də cinayət işi açılsın. İran artıq təyyarənin səhvən vurulduğunu etiraf edib. Həmin cinayəti həyata keçirənlər hərbçilərdir. İrandan başqa hadisə ilə bağlı cinayət işi açan ölkələr baş verən cinayəti hərbi kateqoriyaya aid edib, ona beynəlxalq tribunalda baxılmasına çalışacaqlar. Təbii ki, İran bununla razılaşmayacaq. Özü də ən ali səviyyədə bəyan edir ki, işin obyektiv araşdırılmasına çalışacaq.

Bu hadisə İranın imicinə böyük zərbə vurub. İslam ölkəsinin təməlində haqq-ədalət durmalıdır. İran bunu təmin edəcəyini deyir. Obyektiv qərarlar verməkdən başqa çarəsi yoxdur.

**Bu səbəbdən də maksimum işin obyektivliyini təmin edəcək. Ola bilər ki, Ukrayna və Kanada İrandakı istintaqla razılaşmasınlar, daha ali şəxslərin həbsini tələb etsinlər. İran yalnız özünün daxilində verilən qərarı ilə kifayətlənəcək. Yəni hansısa yüksək rütbəli hərbçisini Ukrayna və ya Kanadaya verməyəcək ki, aparıb mühakimə etsinlər. Bu da ölkələrin İranla münasibətlərində sərinləşməyə gətirib çıxara bilər".**

***Məhəmmədəli QƏRİBLİ***



# ATƏT-in Seçki Müşahidə Missiyasının təmsilçisi Mətbuat Şurasında olub

**ATƏT-in Azərbaycanda Seçki Müşahidə Missiyasının media analitiki Kira Kalinina Mətbuat Şurasında olub.**

Qonağı salamlayan MŞ sədri Əflatun Amaşov rəhbərlik etdiyi qurumun missiyasından söz açıb. Şuranın seçki dövrlərindəki iş prinsiplələri barədə məlumat verən Ə.Amaşov bir neçə istiqaməti fərqləndirib. Bunlardan birincisi, ölkənin ictimai rəyə təsir göstərən kütləvi informasiya vasitələrinin seçki ilə bağlı materiallarının monitorinqidir. İkinci istiqamət seçki günü jurnalistlərin peşə vəzifələrini sərbəst yerinə yetirmələri üçün imkanın yaradılmasına çalışmaqdır. Bunun üçün fevralın 9-da Şurada "qaynar xətt" yaradılacaq və jurnalistlər hər hansı maneə ilə üzləşəcəkləri halda ora məlumat verə biləcəklər. Daha bir istiqamət isə MŞ-nin İdarə Heyətinin üzvlərinin müxtəlif dairə və məntəqələrdə apardıqları müşahidələrdir. Onlar da öz növbələrində yerlərdə jurnalistlərə yaradılmış şəraitlə tanış olacaqlar.

ATƏT-in Azərbaycanda Seçki Müşahidə Missiyasının təmsilçisi K.Kalinina missiyanın görəcəyi işlər barədə məlumat verib. Bununla bağlı MŞ ilə əməkdaşlığın əhəmiyyətindən söz açıb.

MŞ sədrinin müavinləri - Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Rəhimoğlunun və Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərlinin də qatıldıqları görüşdə həmçinin Azərbaycanda söz və ifadə azadlığı ilə bağlı məsələlər, medianın durumu ətrafında müzakirə aparılıb.

**İşğalçı Ermənistanda hakimiyyət başına indiyə qədər Nikol Paşinyan kimi ziddiyyətli və avantürist bir şəxsin gəlmədiyi birmənalı həqiqətdir. Onun mütəmadi olaraq səsləndirdiyi ziddiyyətli bəyanatlar, verdiyi vədlərə sadiq qalmaması, söylədiyi fikirlər indi Ermənistanda Paşinyan barədə maraqlı mövqe formalaşdırıb.**

# Paşinyanda "baş pozğunluğu" müzakirələri Ermənistanı bürüdü...



Hətta bir sıra erməni media orqanları Paşinyanın psixoloji problemləri barədə maraqlı fikirlər irəli sürür.

Qeyd edək ki, sözügedən məsələ bir müddət əvvəl Ermənistanın eks-prezidenti Robert Köçəryan tərəfindən də dilə gətirilib. "Qrapark" qəzetinin yazılı sorğusuna cavab olaraq, Ermənistanın eks-prezidenti Paşinyan barədə bildirirdi: "Başınızı divara çırparıq və asfalta uzadarıq formulu bu ifadənin müəllifinin natamam psixi vəziyyətindən xəbər verir. Sosial psixologiya inqilabi təbliğatın bu təzahürünü yaxşı öyrənib. Belə irrasional insanların hərəkətində səbəb-nəticə əlaqəsi axtarmaq faydasızdır". Köçəryan Paşinyanın həmin ifadəsini inqilabın təhlükəli tərəfi kimi təqdim edib. O, 1998-ci ildə hakimiyyətə gələn zaman əsas siyasi rəqibi Levon Ter-Petrosyanı və tərəfdarlarını təqib etmədiyini də xatırladıb:"1998-ci ildə əhalinin əksəriyyəti Petrosyanı və onun komandasını həbs etməyi tələb edirdi. Amma o zamanlar mən keçmişlə mübarizə aparmağa deyil, birgə gələcək qurmağa qərar verdim. Həbslərə sevinən cəmiyyət yaradıcı ola bilməz. Mənə qarşı irəli sürülən iddiaların reallıqla heç bir əlaqəsi yoxdur".

Köçəryanın bu fikirlərinin ardınca sosial şəbəkələrdə Nikol Paşinyanın növbəti ilginc görüntüləri yayıldı. Lentə alınan kadrlarda Paşinyanın qeyri-adi hərəkətlər etdiyi, həmin vaxt anlaqlı olmadığı görünür. Həyat yoldaşı ilə birlikdə tədbirə qatılan erməni baş nazirin qəribə davranışları geniş müzakirələrə səbəb olub. Onunla bağlı müxtəlif iddilar irəli sürülüb. Bəzi media orqanlarında Paşinyanın psixoloji problemlərinin olduğu, həmçinin rəsmi tədbirə sərxoş halda gəldiyi bildirilirdi. Bir çoxları isə bəyan etdi ki, insan yalnız narkotik maddənin təsiri altında bu cür əndrabadi hərəkətlər edə bilər. Ümumiyyətlə isə, hələ 2018-ci ildə Ermənistanda baş tutan hakimiyyət dəyişikliyindən sonra Paşinyanın bəzi emosional açıqlamalarının ardından sosial mediada onun psixoloji problemləri olduğu və müntəzəm olaraq dərmanlar qəbul etməsi barədə fikirlər yayılırdı. İrəvan meriyasının keçmiş üzvü Marina Xaçatryan Paşinyanın psixoloji vəziyyətini yoxlamaq üçün müayinə aparılmasının lazım olduğunu vurğulayarkən bildirib: "Paşinyan təkəbbürlü bir aldanışa sahibdir. Bu şəxsin psixiatriya klinikasında müayinəsinə ehtiyacı var və bunun üçün vəsait toplayırıq. İnsanlar Paşinyanın ruhi sağlamlığının müayinədən keçirilməsi təkidilə imza toplayır, o, ruhi cəhətdən sağlam deyil". Daha sonra "ordu.az" portalının məlumatına görə, keçmiş MTX rəisi Vanetsyanda Paşinyanın müəyyən psixi problemləri olduğunu sübut edən bir sənəd olduğu barədə məlumatlar ortaya çıxıb. Sənəd MTX rəisi üçün Paşinyan hökumətində işləməməyə qərar verməsinə görə son damla olub. Gələcəkdə nəyin baş verəcəyini anlayan Vanetsyan Paşinyanın hərəkətlərinə görə məsuliyyəti öz boynuna götürməkdən imtina edib. Vanetsyan Paşinyanın qeyri-adekvat vəziyyətinə dair yaydığı açıqlamasına da işarə edib: "Dövlət quruculuğunun öz məntiqi var, qərarların spontanlığı, fəaliyyətlərin çevikliyi, ikinciliyin prioriteti, keçicinin isə qalıcıdan fərqlənməməsi üzrə davranış tərzi hədəflərə çatmağa aparan yol deyil. Zabit ləyaqəti ilə heç bir ümumi əlaqəsi yoxdur. Zabitin rütbəsi və hadisələrin bu cür inkişafı uyğun deyil. İstefam "Dur" üçün düşündürücü bir addım olsun və bütün digər sahələrdə ölkə qarşısında borc qalib gələcək".

O da bildirilir ki, ABŞ prezidenti Donald Trampın qeyri-adekvat davranışından sonra Paşinyanın səhhətindəki problemlərlə bağlı şayiələr yenidən güclənməyə başlayıb. Bir çoxları, Paşinyanın psixoloji problemləri varsa, o zaman dövlətin milli təhlükəsizliyi təhdid altındadır deyə düşünür. Bütün bunlardan sonra, hətta Paşinyanın ailə qəzetində onun ruhi sağlamlığı ilə bağlı ictimai müzakirələrin olduğunu etiraf etməsi bir həqiqətdir. Belə olan halda hesab olunur ki, Paşinyan bu mövzunu birdəfəlik bağlamaq üçün nüfuzlu beynəlxalq klinikalardan birində müayinədən keçməlidir. Əks təqdirdə onun əsl psixopat olması təsdiqlənəcək.

Elə bu problemlər həm də Qarabağ münaqişəsinin həllinə imkan verməyən faktorlardan sayıla bilər. Paşinyanın Dağlıq Qarabağ münaqişəsini həll etməyə nə gücü var, nə hərbi imkanı yetərlidir, nə də lazımi səviyyədə diplomatiyası var. Bu səbəbdəndir ki, Ermənistan getdikcə daha qeyri-müəyyən situasiyaya düşür. Bu durumda Paşinyanın məntiqdən uzaq mövqe sərgiləməsi də məhz psixoloji durumu ilə izah oluna bilər.

***Nahid SALAYEV***

**Son vaxtlar Ermənistan bəzi ərəb ölkələri ilə yaxınlıq etməyə cəhdlər edir. Bu günlərdə Ermənistanın xarici işlər naziri Zöhrab Mnasakanyan İordaniya Haşimilər Krallığının xarici işlər naziri Ayman Safadi ilə telefon danışığı etdiyi bildirilir.**

# Ermənistan İordaniyanı öz regional siyasətində vasitəyə çevirməyə çalışır - müsəlman həmrəyliyi çağırışlarına yeni laqeydlik nümunəsi...

***Tural İrfan:** "Biz müsəlman ölkələrini bu amillərə riayət etməyə səsləməliyik"*



Qeyd olunur ki, telefon danışığında ölkələrin gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib. Qərara alınıb ki, hər iki ölkənin vəzifəli şəxslərinin qarşılıqlı səfərləri təmin olunsun. Həmsöhbətlərin regional məsələləri də müzakirə etdiyi qeyd olunur.

Müsəlman ölkələrinin İslam dəyərlərinə qarşı vandallıq edən Ermənistan kimi ölkə ilə dostluq etməsinə bizim münasibətimiz mənfidir. Ölkə başçısı da dəfələrlə bu mövzuya toxunub. İlham Əliyevin sözlərinə görə, Ermənistan 30 ilə yaxındır ki, beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirir: "İşğal olunmuş ərazilərdə etnik təmizləmə siyasəti aparılıb, bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Həmin ərazilərdə Azərbaycan xalqına məxsus tarixi-mədəni irs, İslam abidələri və məscidlərimiz dağıdılıb və məhv edilib. Ermənistan çalışır ki, müsəlman ölkələri ilə sıx əməkdaşlıq qursun. Ancaq dünya müsəlmanları üçün müqəddəs olan məscidləri dağıdan Ermənistan müsəlman ölkələri ilə dost ola bilməz. Dinimizə qarşı edilən bu vandallıq Ermənistanın islamofob xislətini nümayiş etdirir. Dağlıq Qarabağ Azərbaycanın tarixi və əzəli torpağıdır, Azərbaycanın ayrılmaz hissəsidir. Münaqişə beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşlərinin yekun bəyanatlarında da dövlətlərin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına dəstək davamlı olaraq təsbit edilir".

Bəzi müsəlman ölkələrində olan erməni sevgisi nə ilə izah edilə bilər?

İlahiyyatçı Tural İrfan "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bəzi ərəb ölkələrinin Ermənistanda əlaqələr qurması danılmaz faktdır: "Mən bunu tarixi köklərlə izah edərdim. Müsəlman ölkələrinin içərisində ermənilərlə əməkdaşlığa daha çox maraq edənlər ərəblərdir. Osmanlı İmperiyası dağılandan sonra ingilislərin dəstəyilə daha çox ərəblər türklərə qarşı mübarizəyə istiqamətləndirildi. Həmin təbliğatın nəticəsi hələ də bəzi ərəb ölkələrinin qulağında qalır. Biz bunu tez-tez müşahidə edirik. Təəssüf edirik ki, bu sırada İordaniya da yer almağa başlayıb. Çünki həmin ölkənin Azərbaycanla da çox yaxşı münasibətləri var. Ölkə başçımız müsəlman ölkələrinin Ermənistanla niyə dostluq etməməsinin səbəbini çox sadə izah edib. Çünki Ermənistan dini dəyərlərimizi təhqir edir, məscidlərimizi yandırır. Biz bu istiqamətdə ciddi işləməliyik. Xüsusilə İslam dini üzərində fəaliyyətini quran təşkilatlarımız belə hallara etirazını bildirməlidirlər. Qafqaz Müsəlmanları Ruhani İdarəsi kimi nüfuzlu qurum bu mözvulara bir qədər həssaslıqla yanaşmalıdır. Sizi inandırıram ki, bu yöndə olan sərt bəyanatlar bəzi ölkələri Ermənistanla əməkdaşlıqdan çəkindirə bilər. Təbii ki, bizdə din dövlətdən ayrıdır. Bu bizə irad bildirilə bilməz. Ermənistan praktikasına fikir verək. Orada əksər məsələlər dini xadimlərin əli ilə qabardılır. Bizdə niyə olmasın? Bizim din xadimlərimiz belə mövzulara həssaslıqla yanaşmalı, əlaqələrindən istifadə edib, müsəlman ölkələrini düşmən ölkə ilə yaxınlıqdan çəkindirməlidirlər".

Ekspertin sözlərinə görə, İslam müsəlmanın başqa müsəlmana dayaq durmasını diqtə edir. İordaniya dövlətinin adı Haşimilər Krallığı kimi qeyd edilir. Haşimilər də Məhəmməd Peyğəmbərin nəsli hesab olunur. Peyğəmbərimiz də həmişə zalımın yox, haqqı tapdalanın yanında olmağı buyurub. Bu, Qurani-Kərimdə də bu cürdür.

Biz müsəlman ölkələrini bu amillərə riayət etməyə səsləməliyik. İordaniyanın şeyxinə dövlət xəttilə yanaşı, həm də dini cameə adından etiraz olunmalıdır. Qabaqlayıcı tədbirlər kimi, bütün ərab və müsəlman ölkələrinin nüfuzlu ruhanilərinə bizim düçar olduğumuz Qarabağ konflikti barədə məlumat verilməlidir. Hər halda, nüfuzlu ruhanilərin dövlətə təsirləri güclü olur. Gözləməyək ki, başqa bir müsəlman ölkəsi ilə belə əməkdaşlıq qurulsun və biz ona etiraz edək".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycanın Avrasiya qaz dəhlizi layihəsi Çinlə Avropa İttifaqını müştərək işləməyə cəlb etdi

**Rusiya qazını Avropaya çatdıracaq "Şimal axını-2" qaz kəmərinin çəkilişinin təxirə düşməsi Qərbin diqqətini yenidən "Transxəzər" boru kəməri layihəsinə yönəldib. Belə görünür ki, cari ildə "Transxəzər" Avropa İttifaqının xüsusi diqqət mərkəzində yer alacaq.**

Xatırladaq ki, uzun illərdir planlaşdırılan bu sualtı qaz kəməri Türkmənistanın Türkmənbaşı şəhərini Bakı ilə birləşdirməlidir. Bəzi mənbələrə görə, Qazaxıstandakı "Tengiz"dən bir qaz kəmərini şəbəkəyə bağlamaq və onu Türkmənbaşı ilə birləşdirmək də planlaşdırılır. Bu sualtı qaz kəməri təbii qazın Türkmənistan və Qazaxıstandan Azərbaycan vasitəsilə Türkiyə və Gürcüstana, daha sonra isə Avropa İttifaqına üzv ölkələrə nəqlini nəzərdə tutur. Bu boru kəməri həm də "Cənub Qaz Dəhlizi"nin genişləndirilməsinin bir hissəsi hesab olunur.

Avropa İttifaqının Aşqabaddakı nümayəndəliyinin müvəqqəti işlər vəkili Lübomir Frebort məhz belə bir vaxtda olduqca maraqlı fikirlər səsləndirib. O, "Transxəzər" layihəsi ilə bağlı bildirib: "Transxəzər" qaz kəmərinin inşası və Türkmənistan qazının idxalı Avropa İttifaqının enerji təhlükəsizliyi, qaz idxalı mənbələrinin şaxələndirilməsi sahəsindəki strategiyasının vacib hissəsi olaraq qalır. Bu yaxınlarda yeni Avropa Komissiyası da onu prioritet enerji layihələrinin siyahısına daxil edib". O bildirib ki, fevralın 28-də Bakıda keçiriləcək "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının iclası Aİ və Türkmənistan arasında Aİ-nin energetika üzrə yeni komissarı ilə yüksək səviyyəli ikitərəfli görüşlərin keçirilməsinə, bu dialoqun daha da inkişaf etdirilməsinə imkan verir.

Qeyd edək ki, "Transxəzər" Türkmənistan təbii qazının azı 30 il ərzində Avropa bazarına çatdırılmasını nəzərdə tutur. Ekspertlər bildirir ki, Türkmənistan və Azərbaycanın Xəzər dənizi sahilləri arasında qaz kəməri layihəsi Türkmənistanın TANAP-a qoşulması üçün zəruridir. TANAP qaz kəməri isə Azərbaycan qazının Gürcüstandan və Türkiyədən keçməklə Yunanıstan sərhədinə çatdırılmasını və burada onun davamı olaraq TAP-la Cənubi Avropaya qədər uzanmasını nəzərdə tutur. Deməli, Türkmənistan məhz Azərbaycan vasitəsilə qazını Avropaya çıxara biləcək. Onu da bildirək ki, TAP-ın hazır olması ilə "Cənub Qaz Dəhlizi" tam şəkildə fəaliyyətə başlayacaq. Bu boru kəməri Türkiyə-Yunanıstan sərhədində TANAP boru kəmərinə qoşularaq Yunanıstan, Albaniya və Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna qədər uzanır. Bunlar Aşqabadın da diqqətindən yayınmır və bu ölkənin artıq "Transxəzər"ə daha çox maraq göstərməsi ilə




müşayiət olunur.

Xatırladaq ki, son illərə qədər Rusiya və İran hökumətləri ətraf mühitin qorunması motivləri əsasında "Transxəzər" qaz kəmərinin inşasına qarşı çıxıb. Amma Avropa İttifaqı və digər Xəzəyanı ölkələr bu iddiaları əsassız sayır. Bundan əlavə, Xəzərin hüquqi statusu ilə bağlı sahilyanı ölkələrin son razılaşmaları da sözügedən kəmərin çəkilməsi yolunda maneələri aradan qaldırır. O da maraqlıdır ki, bir müddət əvvəl Çin "Transxəzər"in inşasında Avropa İttifaqını dəstəkləmək qərarına gəlib. Avropa və Çin şirkətlərindən ibarət konsorsium, eləcə də Çinin SINOPEC Mühəndislik Qrupu "Transxəzər"in çəkilişi üçün müvafiq işləri görməyə hazır olduqlarını bəyan edib. Konsorsium bəyan edib ki, "Transxəzər" layihəsi çərçivəsində boru kəmərinin çəkilməsi ilə yanaşı zəruri infrastruktur, o cümlədən qaz təmizləyici qurğu və kompressor stansiyaları layihələri hazırlamağa və qurmağa da hazırdır. Bütün bunlar "Transxəzər"in inşasının yaxın perspektivdə baş tutmasını istisna etmir. Xüsusən də nəzərə alınsa ki, Avropa İttifaqı artıq prosesdə əsas maraqlı tərəflərdən biri qismində çıxış edir. Xatırladaq ki, bundan əvvəl ABŞ prezidenti Donald Tramp da ümid etdiyini bildirib ki, Türkmənistan Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsindən sonra Qərbə qaz ixracının imkanlarından istifadə etməyə başlayacaq. ABŞ prezidentinin türkmənistanlı həmkarı Qurbanqulı Berdiməhəmmədova ünvanladığı teleqramda deyilirdi ki, Türkmənistan Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi ilə bağlı Qərbə yeni qaz ixrac imkanlarından istifadə edə biləcəyinə ümid edir. Azərbaycanın isə layihə ilə bağlı mövqeyi belədir ki, "Transxəzər" barədə qərarı kəmərin başlanğıcını götürdüyü ölkə qəbul etməlidir. Azərbaycan isə ancaq bundan sonra tranzit ölkə kimi öz mövqeyini ortaya qoyacaq. Bakı onu da bəyan edir ki, əlavə həcmləri qəbul etmək üçün kifayət qədər böyük infrastrukturu var. Qeyd olunur ki, alıcının və satıcının kimliyindən asılı olmayaraq, Azərbaycan hər zaman qonşu dövlətlərin hamısının bu məsələdə maraqlarının təmin olunmasına diqqət edir.

***Tahir TAĞIYEV***

# ABŞ Azərbaycanı və qonşuları İranın kiberhücum təhlükəsində qoyub, lakin heç bir texniki kömək təklif etmir...

**ABŞ adından region ölkələri İrandan qaynaqlana biləcək növbəti təhlükə ilə bağlı xəbərdar edilir. Vaşinqtondakı kibertəhlükəsizlik ekspertləri İranın növbəti addımının dağıdıcı kiberhücumdan ibarət ola biləcəyini qeyd edirlər.**




Xüsusilə də bildirilir ki, ABŞ-ın və ya onun regiondakı müttəfiqlərinin infrastrukturuna hücum ola bilər. ABŞ dövlət katibinin köməkçisinin kibernetika və informasiya siyasəti üzrə müavini Robert Streyer bildirib ki, hakimiyyət İrandan gələn potensial təhlükələrlə əlaqədar ayıq olmağa çağırır. O bu təhdidlərin xarakterini açıqlamayıb.

Tehranın yaxın qonşuları, o cümlədən, Azərbaycanın energetika infrastrukturu və ya digər sənaye nəzarəti sistemləri üçün hər hansı təhlükə təşkil edib-etmədiyi haqda suala cavabında Streyer deyib ki, ABŞ İrandan gələn təhdidlərlə bağlı narahatlıqlarını və məlumatları öz tərəfdaşları ilə bölüşüb.

Belə nəticəyə gəlmək olar ki, ABŞ-ın xəbərdarlıq etdiyi ölkələr sırasına Azərbaycan da düşür. Hər halda, İranın qonşu və normal münasibətlərə malik olan ölkə kimi, bizi ABŞ-ın xəbərdar etdiyi kiberhücumların əhatə dairəsinə salacağı inandırıcı görünmür. Çünki Azərbaycan ABŞ-la müttəfiq münasibətlərinə baxmayaraq, heç vaxt öz ərazisində İranla bağlı fəaliyyətə icazə verməyib. Ehtimal edək ki, ABŞ-ın bizi xəbərdar etdiyi proses baş verdi. Bunun təsadüfən və ya hansısa texniki səhvin ucbatından baş tuta biləcəyi ehtimalı da istisna olunmur. Ukrayna təyyarəsinin səhvən vurulmasını buna misal göstərə bilərik. Hər halda, İran belə bir hadisənin yaşanmasını istəməzdi. Aydındır ki, Azərbaycanın kibertəhlükəsizliklə bağlı kifayət qədər sanballı qurumları və mütəxəssisləri var və istənilən hücumun qarşısını ala bilər. Ancaq birdən bu hücumun miqyası çox böyük oldu. Hər halda, ABŞ-ın bəyanatında bununla bağlı notlara rast gəlinmir. Yəni belə olan təqdirdə, ABŞ-ın bizə və digər müttəfiq region ölkələrinə hansı formada texniki köməklik göstərəcəyinə vurğu edilmir. Ancaq belə yardımın olacağı indidən ABŞ tərəfindən bəyan olunmalıdır. Çünki anons edilən hadisə ABŞ-İran münasibətlərinin kəskinləşməsi fonunda baş verə bilərsə, bunun təqsirkarı region ölkələri sayılmır. Bu sahədə böyük təcrübəyə və digər imkanlara malik olan ABŞ öz müttəfiqlərini yalnız İrandan qaynaqlana biləcək kibertəhlükəsizliklə bağlı məlumatlandırıb qorxutmalı deyil, həm də yardım əlini uzadacağını bəyan etməlidir.

**Çünki müttəfiqlik münasibətləri bunu tələb edir. Hər halda, biz belə bir hücumla üzüzə qalmarıq. Çünki sözügedən iki ölkə arasında baş verən qarşıdurmada Azərbaycan daim öz neytrallığını qoruyub.**

***Məhəmmədəli QƏRİBLİ***

# Paşinyanın 49 hərbçi itkisini normal sayması Ermənistanı qarışdırdı - "bu sadəcə fəlakətdir..."

**Orduya laqeyd münasibətin davam etməsi Ermənistanda bu gün ən böyük narazılıq yaradan faktorlardan biri olaraq qalmaqdadır. Elə bundan irəli gəlir ki, düşmən ordusunun istər döyüş, istərsə də qeyri-döyüş şəraitində itkiləri artmaqda davam edir.**

Xüsusən də Azərbaycanın işğal olunan ərazilərində xidmət edən Ermənistan ordusunun əsgərləri böyük problemlər içərisindədir. Ermənistan cəmiyyətini, ailələrini yenə narahat edən məsələ övladlarının məcburi surətdə Dağlıq Qarabağa göndərilməsidir. Bu fonda isə Ermənistan ordusundakı qanunsuzluqlar, özbaşınalıqlar hərbçilər arasında itkilərə səbəb olur. Özü də bu itkilər əksər hallarda təmas xəttində deyil, qeyri-döyüş şəraitində baş verir. Nizamnamədənkənar münasibətlər səbəbindən düşmən ordusunda ölüm halları, intiharlar daim artır.

Məhz belə bir vaxtda Ermənistanın baş naziri Nikol Paşinyanın 2019-cu ildə orduda cəmi 49 nəfər itki olması ilə öyünməsi cəmiyyətdə növbəti narazılığa rəvac verib. Erməni mediası yazır ki, baş nazirin belə bir açıqlaması və itkilərin azlığı ilə fəxr etməsi sadəcə biabırçılıqdır. Məhz bu fonda orduda problemlər yenidən gündəmi zəbt etməyə başlayıb. Ermənistanda fəaliyyət göstərən "Navur" ictimai təşkilatının sədri, hüquq müdafiəçisi Aram Nikoyan bildirir ki, ordunun problemləri əvvəlki kimi qalmaqdadır. O bildirir ki, orduda ölən erməni əsgərlərin çoxu yoxsul ailələrin uşaqlarıdır. Erməni gəncliyinin məhvə getdiyini deyən Nikoyan Ermənistan ordusundakı rüşvətxorluq və cinayət hallarını qeyd edib. O vurğulayıb ki, Dağlıq Qarabağda xidmətdə olan erməni əsgərlərin maddi-texniki imkanları yox dərəcəsindədir: "Onların qidalanmasında problemlər var. Ordudakı ağır vəziyyət Ermənistan gənclərini qorxudur. Orduda kadr çatışmazlığı isə ciddi problemlərə yol açır. Ermənistan ordusunda gizir və çavuşların



azlıq təşkil etməsi səbəbindən hərbi tapşırıqlar azyaşlı əsgərlərə həvalə olunur". Erməni vəkil Norayr Norikyan da vəziyyətin ağır olduğunu bildirir: "Ermənistan Silahlı Qüvvələrinin ən dərin faciələrindən biri budur ki, insan taleləri statistika obyekti hesab olunur və statistik məlumatların yaxşılaşmasının göstərilməsinə cəhd edilir". O qeyd edib ki, qeyri-döyüş şəraitində ən azı bir itkinin olması Ermənistan silahlı qüvvələri üçün rüsvayçılıqdır: "Mən hesab edirəm ki, dərin təhlillər, araşdırmalar həyata keçirilməlidir və bu say sıfıra çatdırılmalıdır. Təqdim olunan saylara gəlincə, ötən il orduda itkilərin sayı 49 olub. Bu sayı aylara bölsən, bu o deməkdir ki, hər ay 3-4 itki veririk. Bizim kiçik ölkəmiz üçün bu sadəcə fəlakətli saydır".

Norikyan bildirib ki, Ermənistan silahlı qüvvələrində faciələrin böyük hissəsi kriminal davranışların mövcudluğu məsələsidir: "Mən sual vermək istəyirəm. Ölmüş əsgərlərin valideynlərinin məsələlərinə yekun həll vermək olar? Müxtəlif komissiyalar yaratmaqla, monitorinqlər həyata keçirməklə biz bu problemi həll etməyəcəyik. Cinayət işlərinin sahibi İstintaq Komitəsi və prokurorluqdur. Bu iki orqan sadəcə gözlərini bağlamağa, işin kimlə əlaqədar olduğunu görməməyə və obyektiv istintaq həyata keçirməyə borcludur. Müəyyən olunsa ki, həqiqətən də günahkarlar var, tutduğu vəzifədən, kim olmağından asılı olmayaraq onları məsuliyyətə cəlb etmək lazımdır. Qırmızı xətt çəkmək lazımdır ki, insan qanının, əsgər qanının qiyməti yoxdur. Əsgər qanına görə heç kim məsuliyyətdən yayına bilməz, vəssalam". Media isə yazır ki, Ermənistan silahlı qüvvələri aztəminatlı ailələrin uşaqlarının ölümü üçün mövcuddur. Yüksəkvəzifəli şəxslərin övladları isə orduda xidmət etməkdən çəkinirlər. Bu səbəbdən onlar Ermənistanda yox, xaricdə yaşayırlar. Bu ölkənin ordusu əvvəlki qaydada xaos və cinayət mənbəyi sayılır. Erməni mediası isə məsələnin daha bir maraqlı tərəfinə diqqət çəkərək yazır ki, krminal ünsürlərin sayının orduda davamlı şəkildə artması da prosesə əsaslı surətdə təsir edir. Qeyd olunur ki, Ermənistan silahlı qüvvələrinin bölmələrində hərbçilər arasında alçaltma, fiziki və cinsi təzyiqlərə məruz qalma, özbaşınalıq nəticəsində baş verən cinayət hadisələrinin sayının durmadan artmasının bir səbəbi də məhz cinayətkarların orduya yol tapmasıdır. Görünən həm də budur ki, yaxın dövr ərzində erməni ordusunda acınacaqlı vəziyyət daha da pisləşməyə doğru gedəcək. Orduda cinayət hallarının sayının durmadan artması, qeyri-döyüş şəraitində itkilər, yüksək çinli hərbçilərin orduya sadəcə gəlir mənəbyi kimi yanaşması və digər belə hallar da qeyd olunanların təsdiqidir.

**Təbii ki, bu şəraitdə ermənilərin Azərbaycan ordusu qarşısında duruş gətirməsi sadəcə mümkünsüzdür. Elə bu səbəbdən Qarabağ münaqişəsinin hərbi həlli gündəmə gəldiyi halda erməni tərəfi hansı böyük zərbələri alacağını yaxşı bilir. Real vəziyyətdə Azərbaycan ordusunu istər şəxsi heyət, istərsə də hərbi texnika ilə təminat baxımından gücləndirdiyi halda, Ermənistanda bütün bunların tam əksi yaşanır. Görünən budur ki, qarşıdakı dövr ərzində erməni ordusunun problemələri sadəcə dərinləşməkdə davam edəcək.**

***Tahir TAĞIYEV***

# İngiltərə kral ailəsində nələr baş verir - sirlər açılır, 44-cü ildə Hitlerlə gizli əlaqə quran şahzadədən Dianaya qədər, oradan isə...

**Son yüz ildə İngiltərə kral ailəsinin həyatında çox şeylər dəyişib. Əsrlərlə insanlar üçün gizli qalan sirlər, sülalə gizlinləri üzə çıxmağa başlayıb. Bir zamanlar əyanların, qulluqçuların, kral sarayına yaxın olan adamların pıçıltı və eyhamla danışdıqları məsələlərin bu gün "sirr pərdəsi" yırtılıb və indi ondan bütün dünya danışır.**

Kral ailəsində elə hadisələr baş verib ki, onlar arasında xəyanətdən tutmuş, satqınlığa, cinsi istismara qədər bir sıra mənfiliklər var. Hətta bəzi mənbələrdə qeyd edilir ki, İngiltərə kral ailəsinin üzvlərindən biri II Dünya Müharibəsi illərində Hitlerə satılıb və 1944-cü ildə isə o, təyyarə qəzasında öldürülüb.

1952-ci ilin 12 fevral tarixindən İngiltərə kraliçası olan II Yelizavetanın ailəsində xoşagəlməz hadisələr baş verir. Cəmiyyətdə, eləcə də KİV-də daim dedi-qodu mövzusu olan İngiltərə kral ailəsi yenidən gündəmə gəlib. Bu dəfə şahzadə Harri və onun həyat yoldaşının verdiyi qərar kral ailəsini yenidən dilə-dişə salıb. Belə ki, Sasseks hersoqu, şahzadə Harri və həyat yoldaşı Meqan Markl Britaniya kral ailəsindəki yüksək vəzifələrindən imtina etdikləri, iqtisadi cəhətdən müstəqil olmaq üçün çalışacaqlarını açıqlayıblar.

Harri və Meqan "İnstagram" hesablarından vaxtlarının çoxunu Britaniya ilə Amerika arasında keçirəcəklərini qeyd ediblər. Onlar Britaniya və Amerikada yaşasalar da, Kraliça və İngilis Millətlər Birliyi qarşısında, həmçinin, himayə etdikləri yerlər üzərindəki öhdəliklərini də yerinə yetirəcəklərini vurğulayıblar.

Harri və Meqan gələcəkdə xeyriyyə cəmiyyəti yaratmağı planlaşdırdıqlarını bildiriblər. Onların konkret olaraq hansı vəzifələrdən imtina etdikləri hələ ki, məlum deyil.

İngiltərə kral ailəsində baş verənləri illərdir izləyən tarixçi və müşahidəçilər hesab edirlər ki, şahzadə Harri və Meqanı bu addımı atmağa vadar edən heç də onların "müstəqil" yaşamaq istəyi deyil. Burada olduqca incə bir məsələ olduğunu vurğulayan müşahidəçilər hesab edirlər ki, evli cütlüklərin belə bir qərar verməsinin əsas səbəbi kral ailəsində baş verən anlaşılmazlıqdır. O da bildirilir ki, Meqan Marklın kral ailəsinə gəlin gəlməsi ailədə böyük narazılıqlar, fikir ayrılıqları, hətta şahzadə Harri ilə qardaşı arasında ciddi uçurum yaradıb. Dünya mediasında kral ailəsində qardaşlar arasında problem yaşandığı barədə çox yazılıb. Hətta şahzadə Harri qardaşı ilə əlaqəni kəsdiyini deyib. Buna əsasən də uzun müddət ingilis mediası Meqan Marklın kral ailəsinə gəlməsi ilə Harri və Uilyam qardaşları arasındakı əlaqələrin kəsildiyini iddia edib. Məlumatlarda bildirilir ki, şahzadələr tez-tez mübahisə edirlər. Kompromis ümidsizdir və yalnız istisna hallarda ünsiyyət qururlar.

Əvvəllər Bukingem Sarayı mətbuatın iddialarını uydurma adlandırsa da, son zamanlar bunu etmək mümkün olmayıb. Sakses hersoqu özü də bu problemlərin mövcudluğunu inkar etmirdi: "Ailəmiz davamlı təzyiq altındadır, belə şəraitdə münaqişələr qaçılmazdır. Ancaq biz qardaşıq və həmişə də olacağıq. Artıq yollarımız bir-birindən ayrıldı, amma lazım gəlsə, həmişə onun yanında olacağam və o da mənim üçün eyni şeyi edəcək.

Bəli, məşğul olduğumuz üçün bir-birimizi daha az görürük, amma mən onu çox istəyirəm, mətbuat isə bizim münasibətlərimizi çox şişirdir. Qardaşıq, yaxşı və pis vaxtlarımız var" - deyə şahzadə Harri bildirirdi. Şahzadə Çarlz və onun birinci həyat yoldaşı şahzadə Diananın oğlanları, Böyük Britaniya Kraliçası II Yelizavetanın nəvələrinin yola getməməsi kral ailəsində böyük narahatlıq yaradıb.

Şahzadə Harrinin nənəsi II Yelizavetadan ayrılmasının ortada müəyyən siyasi çalarlarla bağlı olduğu da bildirilir.

Qeyd edək ki, İngiltərə kral ailəsi ilə bağlı ən səs-küylü hadisələrdən biri şahzadə Dianın özəl həyatı və dünyada böyük əks-səda yaradan qətli hadisəsi olmuşdu. 1992-ci ildən Çarlzla ayrı evlərdə yaşamağa başlayan Diananın bu addımı atmasına ərinin xəyanəti səbəb olmuşdu. Çarlz açıq şəkildə Kamilla ilə görüşməyə başlamışdı. Diananın da boşanmamışdan əvvəl bir neçə sevgilisi var idi: reqbi oyunçusu Uil Karlinq və əsgər Ceyms Hevit.



Diana BBC-yə müsahibəsində evliliklərində nələr olduğunu hər kəsə bildirmək istəyirdi.

1995-ci ilin dekabrında, şahzadənin müsahibəsindən sonra Kraliça Uelsin hər iki şahzadəsinə tezliklə boşanmaları üçün məktublar göndərdi. 20 dekabr 1995-ci ildə Bukingem sarayı Kraliçanın Uelsin şahzadələrinə boşanmalarını məsləhət etdiyi məktublar göndərdiyini ictimaiyyətə elan etdi. Baş nazir Con Meycor da onların ayrılmalarını istəmişdi. Şahzadə Çarlz tezliklə yazılı bəyanatla rəsmi olaraq boşanma ilə razılaşdı. Boşanma 28 avqust 1996-cı ildə başa çatdı və onlar rəsmi olaraq ayrıldılar. Diana özünün Zati-aliləri adını itirdi və əvəzində, sadəcə, Uels şahzadəsi Diana olaraq qaldı. Hələ bundan bir il əvvəl Tina Brauna görə, Edinburq hersoqu Uels şahzadəsinə əvvəlcədən xəbərdarlıq etmişdi: "Əgər özünü apara bilmirsənsə, qızım, biz sənin titulunu geri alacağıq". Uels şahzadəsinin isə belə cavab verdiyi deyilir: "Mənim titulum sizinkindən çox köhnədir, Filip". Bukingem sarayı Uels şahzadəsinin taxta ikinci və üçüncü namizədlərin anası kimi hələ də kral ailəsinin üzvü olduğunu bəyan etdi.

Şahzadə Uilyam anasına təsəlli vermişdi və ona yenidən Zati-aliləri adına malik olmasına icazə verilməsini istədiyini bildirmişdi. Onun belə söylədiyi barədə məlumat verilir: "Narahat olma, anacan, mən kral olanda bir gün sənə o titulu geri verəcəm".

Qeyd edək ki, kral ailəsində şahzadə Harri yeganə şəxs deyil ki, öz imtiyazlarından imtina etsin, hətta onun əmisi şahzadə Endryu cinsi istismara görə, ümumiyyətlə, öz səlahiyyətlərindən və imtiyazlarından imtina etmək məcburiyyətində qalıb. II Yelizavetanın oğlunun adı cinsi istismarda hallandırılıb, bu da onun öz səlahiyyətlərini itirməsinə səbəb olub.

Son illər Britaniyanın kral ailəsinin üzləşdiyi itkilərin sayı-hesabı yoxdur. Onu da bildirək ki, şahzadə Endryu yüksək rütbəli və məşhur tanışları üçün yetkinlik yaşına çatmayan qızların iştirakı ilə gecələr təşkil edən məşhur maliyyəçi Cefri Epşteynlə dostluq münasibətlərində olub. Şahzadə Endryu özü şəxsən bir neçə belə tədbirdə iştirak edib. Doğrudur, kraliçanın oğlu bunu təkzib etsə də, olayla bağlı Britaniya mətbuatı çəkiliş və foto şəklində sübutlar dərc etmişdi. Nəticədə kral ailəsinin nüfuzuna ciddi xələl gəlməklə yanaşı, həmçinin, bir sıra kompaniyalar şahzadə ilə işgüzar münasibətləri dayandırdıqlarını rəsmən bəyan etmişlər.

Tarixçi Həyat Məhərrəmova qeyd edir ki, Britaniya kral ailəsi tarixən dedi-qodu, qalmaqal ünvanlarından biri kimi diqqəti çəkib. Onun sözlərinə görə, bu gün şahzadə Harrinin və həyat yoldaşının bütün imtiyazlardan imtina edərək "hamı kimi" yaşamaq istəmələrinin arxasında şübhəsiz ki, gizli məqamlar durur. O bildirdi ki, son illər Britaniya kral ailəsinin səlahiyyətlərinin azaldılması, hökumətin daxili və xarici siyasi məsələlərdə krallıqla hesablaşmaması bir sıra problemlərin meydana çıxmasına səbəb olub.

Ekspert qeyd etdi ki, Böyük Britaniya kral ailəsi dünyanın ən zəngin ailələrindən biri kimi bu gün də gündəmdədir.

Belə bir fikir geniş yayılıb ki, guya Böyük Britaniya kraliçası qızıl içərisində "üzür" və ürəyi istədiyi hər bir şeyi özü üçün əldə edə bilər. Lakin bu heç də belə deyil. Monarxiya ailəsi ölkənin ən varlı insanları sırasında 257-ci pillədədir və kraliçanın sərvəti 550 milyon dollara bərabərdir.

Onların sahib olduğu iqamətgah isə 77 min kvadratmetr əraziyə sahibdir. Ailənin nəhəng evində 775 otaq var və onlara qulluq edən xidmətçilərin sayı 800 nəfərə bərabərdir.

Britaniya Kraliçasının ildə 2 dəfə öz ad gününü qeyd etdiyi deyilir. Bu tarixlərdən biri 21 aprel (rəsmi olaraq dünyaya gəldiyi gün), digəri isə may ayının ortalarındadır. İkinci tarix ümumxalq bayram edilməsi üçün təyin edilir. Kraliça II Yelizaveta monarxiyaya hər kəsdən daha uzun müddət başçılıq edir və o artıq 64 ildir taxtın sahibidir. Bir çoxu Böyük Britaniyanın 1-ci xanımının rəsmi soyadının nə olduğu ilə maraqlanır. Kraliçanın soyadı isə Mauntbetten-Vindzordur. Qeyd edək ki, şahzadə Uilyam taxtın ən ağıllı varisi hesab edilir. Belə ki, o, Send-Endryuda aldığı təhsil zamanı mükəmməl nəticələr nümayiş etdirib. Şahzadənin həyat yoldaşı Keyt Middlton da, həmçinin, eyni təhsil müəssisəsində təhsil alıb. Maraqlıdır ki, Keyt Middlton Corc Vaşinqtonla qohumluq əlaqələrinə sahibdir. Qeyd etdiyimiz kimi, Britaniya şahzadəsi Harri və həyat yoldaşı, amerikalı aktrisa Meqan Markl kral ailəsi üzvləri səlahiyyətlərindən imtina etmək və kral evindən maddi cəhətdən müstəqillik əldə etmək üçün addım atıblar və artıq kraliçadan ayrılıblar. Britaniya kral ailəsinin üzvlərinə gəlincə, II Yelizaveta hələ şahzadə olarkən, 1947-ci il noyabrın 20-də şahzadə Filiplə ailə həyatı qurmuşdu. Filip Yunanıstan kralı I Georqun oğlu idi. 1952-ci ildə II Yelizaveta taxta çıxdıqdan sonra Filip Edinqburq şahzadəsi fəxri titulunu daşımağa başladı. Cütlüyün 4 övladı - şahzadə Çarlz (1948), şahzadə Anna (1950), şahzadə Endryu (1960), şahzadə Eduard (1964) və 6 nəvəsi var. Britaniya kral ailəsinin qaydalarına görə, taxtın varisi Vindzorlar sülaləsinin kişi üzvləri, onların yoxluğunda isə qadın üzvləri sayılırlar. II Yelizaveta və Edinburq şahzadəsi Filipin böyük oğlu şahzadə Çarlz taxtın bir nömrəli varisi hesab olunur. Lakin ictimai sorğular onun xalq arasında qeyri-populyar olduğunu göstərir. 1981-ci ildə şahzadə Diana ilə ailə həyatı quran Çarlz sonradan ondan boşanmaqla mühafizəkar Britaniya cəmiyyətində tənqidlərlə qarşılaşır. Diananın 1997-ci il avqustun 31-də Parisdə avtomobil qəzasında həlak olması isə bu tənqidləri daha da artırıb. Daim dedi-qodu ünvanına çevrilən Böyük Britaniya kral ailəsinin həyatında baş verən bütün xoşagəlməz hadisələr Krallığın nüfuzuna bir qədər də mənfi təsir göstərib.

*İradə SARIYEVA*

**"Azərbaycanda mövcud olan sabitlik, beynəlxalq mövqelərimizin möhkəmlənməsi, ölkəmizdə keçirilmiş beynəlxalq tədbirlər turizmin inkişafına xidmət göstərir". Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə çıxışı zamanı deyib.**

# Turizm Azərbaycana Ermənistanın dövlət büdcəsindən artıq gəlir gətirməyə başlayıb - 3 milyarddan çox...



## *Elçin Rüstəmov: "Düşmən ölkənin turizm sektoru çöküş səviyyəsindədir"*

Dövlət başçısının sözlərinə görə, ötən il turistlərin səfərləri rekord həddə çatıb - 3 milyon 170 min xarici qonaq ölkəmizə gəlib: "Mənə verilən məlumata görə, təkcə bank kartları ilə xarici turistlər Azərbaycanda 1 milyard 260 milyon manat pul xərcləyiblər. Ancaq, bütövlükdə, nəzərə almalıyıq ki, gələn turistlər əsasən qonşu ölkələrdəndir və bizdə olduğu kimi, orada da hələ ki, nağd hesablaşmalar üstünlük təşkil edir. Ümumi hesablama göstərir ki, xarici turistlər Azərbaycanda, bütövlükdə, 4,3 milyard manat pul xərcləyiblər. Mən bunu manatla deyirəm, amma, əslində, bu, valyutadır".

Danılmaz faktdır ki, Azərbaycan turizmi artıq inkişaf dövrünü yaşayır. İstirahət üçün ölkəmizi seçən xarici vətəndaşların sayı günü-gündən artır. Təbii ki, turist sayının bol olması ölkəyə daxil olacaq valyutanın həcminin artmasına səbəb olur.

Ancaq Ermənistanda isə vəziyyət turizm baxımından bərbaddır. Erməni mətbuatı bu günlərdə Ermənistanın turist həsrətində olması haqqında məqalə hazırlayıb. "News.am" saytı qeyd edir ki, Ermənistanın turizm sektorunda geriləmə yaşanır: "Artıq bu sahədə də ciddi geriləmə var - Ermənistana gələn turistlərin sayında ciddi azalma müşahidə edilir".

Sevindirici haldır ki, Azərbaycan turizmin inkişafına görə qonşu ölkələri qabaqlayıb. Ümumi hesablama göstərir ki, xarici turistlər Azərbaycanda, bütövlükdə, 4,3 milyard manat pul xərcləyiblər.

Qeyd edək ki, Azərbaycanın turizmdən götürdüyü gəlir Ermənistanın dövlət büdcəsindən

*"Turist keyfiyyət və gözəlliyə önəm verir, ancaq Ermənistanda bu sahədə vəziyyət bərbaddır"*

çoxdur. Məlumat üçün bildirək ki, regionda ən az büdcə Ermənistana məxsusdur. Ermənistanın dövlət büdcəsi 1 trilyon 822 milyard dram təşkil edəcək. Bu, 6 milyard 455 milyon manata bərabərdir. Bu isə o deməkdir ki, işğalçı ölkənin büdcəsi Azərbaycandakından 4 dəfədən də çox azdır.

Məsələ ilə bağlı fikir bildirən turizm sahəsi üzrə ekspert Elçin Rüstəmov qeyd etdi ki, hazırda dünyanın bir çox ölkəsində turizmdən gələn gəlir ölkə büdcəsinin əsasını təşkil edir. Ona görə də dünya dövlətləri arasında turizmin inkişafı xüsusi əhəmiyyət kəsb edir: "Daşınmaz tarix və mədəniyyət abidələri hər bir ölkənin tarixinin və mədəniyyətinin əyani sübutudur. Bu abidələrin mühafizə edilməsi və qorunması nəinki ölkənin tarixinin və mədəniyyətinin yaşadılaraq gələcək nəsillərə ötürülməsinə xidmət edir, eyni zamanda, bu abidələr məxsus olduğu ölkə büdcəsinin gəlir mənbəyinə çevrilir".

Həmsöhbətimiz onu da əlavə etdi ki, hazırda Azərbaycan turizmi inkişaf dövrünü yaşayır. Bunu ölkəmizə gələn turistlər təsdiq edir. Ancaq düşmən ölkənin turizm sektoru çöküş səviyyəsindədir. Çünki bu ölkənin infrastrukturu, tarixi məkanları, həmçinin, istirahət mərkəzləri və otellər də turistlərin diqqətini cəlb etmir: "Bəllidir ki, turist keyfiyyət və gözəlliyə önəm verir. Ancaq Ermənistanda bu sahədə vəziyyət bərbaddır".

***Günel CƏLİLOVA***

**Ermənistanın iqtisadiyyat naziri Tiqran Xaçatryan 2019-cu ilin yekunları ilə bağlı keçirdiyi mətbuat konfransında qeyd edib ki, ötən il ölkənin kənd təsərrüfatında azalma müşahidə olunub. Onun sözlərinə görə, ötən ilin 9 ayının göstəricilərinə görə, kənd təsərrüfatında 4 faiz azalma qeydə alınıb:**

# Azərbaycanda hərtərəfli inkişaf rəqəmləri fonunda Ermənistan aqrar sektorda 4 faiz tənəzzülü rəsmən bəyan etdi...



## *Rəsul Cahangirli: "Bütün bunlar onu göstərir ki, Ermənistanda, digər sahələrdə olduğu kimi, aqrar sektorda da idarəçilik düzgün qurulmayıb"*

"Ötən ilin rəqəmləri tam açıqlanmasa da, 2019-cu ildə 2018-ci illə müqayisədə daha aşağı göstəricilərimiz olacaq".

O bunu iki amillə əsaslandırmağa çalışıb. Birincisi, bu sahədə qeydiyyatla bağlı problemlərin olduğunu deyib. İkincisi, kənd təsərrüfatında qısa müddət ərzində yüksək artım templərini əldə etmək üçün effektivlik yoxdur.

Ancaq Ermənistandan fərqli olaraq, ötən ili Azərbaycanın kənd təsərrüfatı artımla başa vurub. Prezident İlham Əliyev 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə çıxışı zamanı deyib ki, kənd təsərrüfatı təxminən 7 faiz artıb: "Xüsusilə bitkiçilikdə bu artım daha böyük olmuşdur - 10 faizdən çox. Bu da görülmüş işlərin nəticəsidir. Bizim ənənəvi sahələrimiz inkişaf edir və bərpa olunur və yeni kənd təsərrüfatı sahələri fəaliyyətə başlayır. Burada kənd təsərrüfatının birbaşa sənaye ilə uzlaşması var. Misal üçün, keçən il meyvə-tərəvəz istehsalı böyük dərəcədə artıbdır. Üzümçülük 25 faiz artıb və 190 min tondan çox üzüm yığılıb".

Baramaçılığın inkişafından danışan dövlət başçısı deyib ki, 2015-ci ildə cəmi 200 kiloqram barama yığılıb. Ancaq keçən il barama yığımı 630 tona yüksəlib. Pambıq istehsalı keçən il rekord həddə - 294 min tona çatıb.

Göründüyü kimi, digər sahələrdə olduğu kimi, aqrar sahədə də Azərbaycan Ermənistandan öndədir. Azərbaycanda bu sektorda artım qeydə alındığı halda, Ermənistanda tənəzzül yaşanır.

Sözügedən məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, Ermənistanın aqrar sektorda tənəzzül yaşaması bu ölkə hakimiyyəti üçün böyük utancdır: "Nəzərə almaq lazımdır ki, Ermənistan təbii resurslarla zəngin olmayan ölkədir. Düzdür,

*"Halbuki, Paşinyan hakimiyyətə gəldikdən sonra ilk vaxtlar bəyan edirdi ki, ölkənin kənd təsərrüfatı inkişaf edəcək"*

qonşu Gürcüstan da sözügedən resurslara malik deyil. Ancaq Ermənistandan fərqli olaraq, Gürcüstanda iqtisadiyyat inkişaf edir. Aqrar sektorda məhsul istehsalı azalmır, əksinə, artır. Azərbaycana gəldikdə isə, ölkə iqtisadiyyatının istər sənaye, istərsə də kənd təsərrüfatı sahəsi sürətlə inkişafdadır. Bunu əvvəlki illərlə müqayisədə statistik rəqəmlər də əyani şəkildə sübut edir. Hansı ki, ilin yekunları ilə bağlı müşavirədə bir daha bu təsdiqləndi. Bütün bunlar onu göstərir ki, Ermənistanda, digər sahələrdə olduğu kimi, aqrar sektorda da idarəçilik düzgün qurulmayıb. Paşinyanın populist açıqlamaları fonunda ortaya atdığı ideyalar reallığa söykənmir. Halbuki, Paşinyan hakimiyyətə gəldikdən sonra ilk vaxtlar bəyan edirdi ki, ölkənin aqrar sektoru inkişaf edəcək. Deyirdi ki, əvvəlki hakimiyyətin vaxtında kənd təsərrüfatında məhsul istehsalının uçotu düzgün aparılmayıb. O zaman ortaya sual çıxır: bəs indi nə baş verir? İki ilə yaxındır ölkədə yeni qüvvələr hakimiyyətdədir, amma aqrar sektorda nə artıma nail olublar, nə də tənəzzülün qarşısını ala biliblər. Bir məqamı da qeyd edim ki, aqrar sahənin inkişafına nail olmaq üçün həm də böyük subsidiyalara ehtiyac var. Əksər ölkədə büdcədən bununla bağlı vəsait ayrılır. Ermənistanın isə belə bir imkanı yoxdur. Üstəlik, xarici maliyyə qurumları da Ermənistana bununla bağlı kredit ayırmaqda maraqlı deyillər. Çünki, ümumən, Ermənistan iqtisadiyyatı onları cəlb etmir".

***Vidadi ORDAHALLI***

# Bir ər oğlu ər, Azərbaycan oğlu tanıyıram - Həbib Əliyev...

## Qürbətdə yanan "Ümid çırağımız!.."

**Hörmətli oxucu, 27 fevral - 7 mart 2014-cü ildə "Müasir Azərbaycan müəllimi" qəzetində davamlı olaraq "Həbib Əliyev kimdir?", "Uzaqdan gələn səslər" adlı silsilə yazılar yazmışdım. Bəziləri onu çoxdan, lap çoxdan tanıyır, mən isə beş ildir tanıyıram. Onu fədakar vətən oğlu kimi tanıdım və sevdim, hətta yaxşı mənada qibtə də etdim. Fikirləşdim ki, ilahi, nə olardı bütün vətəndaşlarımız vətənimizi onun kimi sevə, heç bir qarşılıq ummadan vətən üçün canını fəda etməyə hazır olaydı...**

Bu insan mənim üçün vətən uğrunda mübarizə aparıb, yüksək vətənpərvərlik ruhunu aşılayan mərd vətən oğullarından biridir. Bu yazımda onun bir vətən oğlu kimi Sevastopolda vətənimiz üçün nələr etdiyini qələmə almayacam (çünki bu haqda silsilə yazılarım var).

Bu yaxınlarda "Azərbaycan" nəşriyyatının qarşısında "Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev və şair Eldar Həsənli ilə görüşəndə telefonumdakı şəkilləri görüb dedi ki, Həbib müəllimi mən də tanıyıram, dəyərli insan, əsl vətəndaşdır. Onun haqqında yazılarınız olsa, qəzetimizin səhifələrində yer ayıra bilərik.

Bu yazımda vətən oğlunun daxili, mənəvi aləminə baş vuracam və sizlərə Həbib müəllimi tamam fərqli ampluada tanıtmağa çalışacağam. Əgər bunu bacarsam, nə xoş mənə...

Həbib müəllimin siması gözəl və nurludur, qəddi-qamətlidir, gözləri işıqlı və bir o qədər də yorğundur.

Saçlarına ağ cığırların vaxtsız iz saldığını o saat anlamaq olar. Çoxları üçün əsl qəhrəman, fədakar insan, Azərbaycan kişisi timsalıdır. Mən onu əvvəl bir jurnalist kimi tanımışam. Çox səbrli və təmkinli davranışları var idi. İlk vaxtlar fikirləşirdim ki, görəsən, bu insan əsəbiləşə bilərmi? Sonralar gördüm ki, əsəbiləşir. Axı o da insandır. Əsəbiləşsə belə, təmkinini pozmur, hər kəslə öz dilində danışmağı bacarır...

Məndən soruşsalar ki, vətən üçün canını fəda edən kimləri tanıyırsan? - Bu sırada yer alan çoxları var təbii ki... Bu sırada mən həm də Həbib Əliyevin adını heç fikirləşmədən çəkərdim. Deyərəm ki, o bizim xaricdə Ulu Öndər Heydər Əliyev kursunu vicdanla, - təmənnasız davam etdirən "Qobustan" radiosunun "Ümid çırağıdır". Xarici ölkədə, qürbətdə Vətən üçün çalışan bir azərbaycanlı vətəndaşımızdır Həbib müəllim.

Həbib müəllimin bu vətən üçün etdiklərini yazmaqda sözlər, cümlələr azlıq təşkil edər, yoxsul qalar...

Sevgilər cürbəcür olur: ana sevgisi, övlad sevgisi, nəvə sevgisi və s. Həbib müəllimdə isə elə bir sevgi təzahür edib ki, onun bu sevgisi olmasa, heç bir başqa sevginin önəmi yoxdur. Bu, vətənə, torpağa olan sevgidir. Bu sevgi yolu çox keşməkeşli, daşlı-kəsəkli yoldur əslində. Çoxları bu yolu sonadək gedə bilmir, ancaq Həbib müəllim xaricdə fəaliyyət göstərib də "vətənim dardadır, işğal olunan torpağım alınmayanacan qələmimi süngü edib mübarizə aparacam", - deyib...

Artıq Həbib müəllimin 74 yaşı var. Ailə həyatı belə qurmayan bu insan bütün sevgilərini qəlbinin dərinliyində vaxtsız-vədəsiz söndürüb. Onun bütün varlığı, qəlbi vətən sevgisinə köklənib...

Bir müddət Bakıda fəhlə yataqxanasında tərbiyəçi işləyib, bir müddət məktəbdə dil-ədəbiyyat fənnini tədris edib, bir müddət xaricdə Azərbaycan balalarına pulsuz dərs deyib, uşaqlara vətən, torpaq sevgisi aşılayıb. Ən çətin zamanlarda, 1990-cı ildə qorxmadan bir sovet generalına deyib ki, 1941-1945-ci illərdə müharibə gedəndə bizim babalarımız, oğullarımız sizin torpaqlarınız üçün canından keçib, sizlər isə bu yaxşılığın əvəzində bizim öz torpaqlarımızda xalqımıza silah qaldırıb, torpaqlarımızın işğalına şərait yaradırsınız.

Bax, beləcə bütün həyatını vətəninə, torpağına həsr edib Həbib müəllim. Taleyinə yağışlar yağsa da, baharı qışa dönsə də, çətinliklər dolu kimi üstünə tökülsə də, vətən üçün çıxdığı yolda cavan ömrü solsa da, bu yoldan dönməyib o. Qərib ölkədə "Qobustan" radiosu ilə, Bakıdan gedəndə apardığı sarı simli tarla nəfəs alıb. Azərbaycan həqiqətlərini yayıb, bu yolda qarşısına çıxan manеələr onu yıxmağa çalışsa da, yıxılmayıb. Dimdik ayaqda durmağı bacarıb. Ona görə bacarıb ki, bu insanda vətən eşqi, vətən sevgisi ilahi mərtəbəyə çatıb. Onu deyə bilərəm ki, Həbib müəllim insanlarımız üçün əvəzolunmaz, fəxr etdiyimiz bir Azərbaycan kişisidir.

Hörmətli Həbib müəllim! Sizə bütün tanıyanlar adından deyə bilərəm ki, siz hər kəsin ürəyində yer tapmısınız. Sizi hamımız sevirik. Buna əmin ola bilərsiniz. Bilirsiniz niyə? Çünki sizi gözəl edən nə ağ saçınız, nə nurlu üzünüzdür. Sizi fərqli edən və sevdirən sizin qəlbinizin vətən üçün vurması, sevginizin sonsuz olması və bu yolda etdiyiniz fədakarlıqlardır.

Belə bir deyim var ki, "çox insan sadəcə "var" olur. Yaşamaq çox nadir hallarda rastlanan bir şeydir. Həbib müəllim, sözün əsl mənasında, "var" olan yox, "yaşayan və yaşadan" insanlardandır. Yaşayıb-yaradaraq bu gün 75 yaşına çatıb. İllər bir göz qırpımında ötüb keçib... Elə bil hər şey dünənmiş kimi... Bu 75 yaşın çox hissəsini usanmadan, bezmədən xalq üçün yaşayıb, vətən üçün çalışıb. Hər zaman ürəklərdə yaşayacaqsınız, əziz Həbib müəllim. Çünki heç kim unudulmur, heç nə yaddan çıxmır.



Əziz oxucum, bütün bu ürəyimdən gələn sözləri yazarkən həmişə qorxduğum bir biganəliklə rastlaşdım. Eşitdim ki, Həbib müəllim Sevastopoldan xəstələnib Bakıya gəlib. Üzdə olan televiziya aparıcılarına (Zaur B, Xoşqədəm H.) yazılı müraciət etdim. Bu vətən oğluna da biganə qalmamağı, kömək etməyi onlardan xahiş etdim. Lakin qara daşdan səs çıxdı, onlardan səs çıxmadı. Sonda Həbib müəllim özü dedi ki, heç kimə ağız açmayım və istədi ki, onu Naxçıvana - Babək rayonunun Cəhri kəndinə yola salım. Naxçıvana gedəndən sonra tez-tez onunla əlaqə saxlayırdım. Ona kömək edə bilmədiyim üçün özümü günahkar sayır, elə hey düşünür-düşünürdüm. Bircə dualarımı əskik etmirdim. Axı əlimdən başqa heç nə gəlmirdi.

Sonuncu dəfə zəngləşəndə dedi ki, vəziyyəti ağırlaşıb, Naxçıvan Mərkəzi Xəstəxanasındadır, etibarlı əllərdədir. Naxçıvan Mərkəzi Xəstəxanasının baş həkimi Zəbur Bağırovdan, cərrahiyyə şöbəsinin müdiri, tibb elmləri namizədi Məhərrəm Tarıverdiyevdən və bir çox xəstəxana işçisindən ağızdolusu minnətdarlıq etdi. Çox sevindim.

Onun Naxçıvanda bu cür qayğı ilə əhatə olunmasında, xüsusi diqqət yetirilməsində hörmət etdiyim bir nəfərin də xidməti çox böyük oldu. Bu şəxs "Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın müəllimdir!

Aydın müəllimin də narahatlığı öz bəhrəsini verdi. Belə ki, bir çox ziyalı, vətən oğulları Həbib müəllimlə bağlı məlumatlandırıldı. Və bundan sonra Həbib müəllimdən, onun səhhətindən xoş xəbərlər gəlməyə başladı.

Sonra eşitdiyim, Naxçıvana dövlət xəttilə gedən bir dəstə deputatımızın, başda Mətbuat Şurasının sədri deputat Əflatun Amaşov olmaqla, Həbib müəllimin müalicə aldığı xəstəxanaya getmələri, onu ziyarət etmələri, həkimlərə onun haqqında bilgi vermələri çox ürəkaçan idi. Ona görə ürəkaçan idi ki, Həbib müəllim kimi insanların qiymətini, şair demişkən, sağlığında verməklazımdır. Sonda çox-çox gec olur axı...

Bu yaxınlarda Həbib müəllimlə telefonla əlaqə saxladım. Çox ürəkli danışdı. Onunla tez-tez telefon əlaqəsi saxlayan Aydın Quliyevdən, Əflatun Amaşovdan çox razılıq etdi.

Onun bu söylədiklərindən sonra bir vətəndaş kimi ürəyim qürurla doldu. Fikirləşdim ki, dünya yaxşı insanlardan xali deyil. Vətən üçün, torpaq üçün canını fəda edən, vətənin əsl vətəndaşı olan insanları düşünən, onlara biganə olmayan yaxşı insanlar da varmış.

Həbib müəllimə ziyalılarımız tərəfindən olan qayğını gördükdə ürəyim riqqətə gəldi.

Prezident İlham Əliyev cənablarına belə bir məzmunda teleqram vurdum. Teleqramın mətnini olduğu kimi təqdim edirəm:

"Hörmətli Prezidentimiz Heydər Əliyev rəhmətə gedəndə dünya mənim üçün bir az da daralmışdı. Lakin sonra Siz hakimiyyətə gəlib ilk reformalarınıza başlayanda gördüm ki, ölkəmizin taleyi möhkəm əllərdədir. Müasir dövrdə mediamızın başında duran sağlam düşüncəli insan Əflatun Amaşovun Naxçıvana dövlət xətti ilə getməsi və orada xəstəxanada yatan vətən oğlu Həbib Əliyevə öz başının dəstəsi ilə baş çəkib, qayğısına qalmasını eşidəndə qürur hissi duydum ki, həqiqətən də vətəni sevən adamların sevgisi ən əsas onun genində, qanında, canında olmalıdır. Həbib Əliyev o şəxslərdəndir ki, Qarabağ hadisələrində Heydər Əliyev kursunu əldə əsas tutaraq xaricə - Ukraynaya getmiş, orada Azərbaycan həqiqətlərini dünyaya yaymaq üçün "Qobustan" radiosunu təkbaşına açmışdır. Elə oldu ki, Həbib Əliyev xəstələndi. Bakıda ATV-yə, "Xəzər" TV-yə müraciət etdim, heç kim ona dayaq durub, sağalması üçün həkimlərlə əlaqə yaratmadı, qayğısına qalmadı. Axırda naəlac qalıb, ağır vəziyyətdə onu doğulduğu Cəhri kəndinə yola saldım. Mən jurnalist olaraq Həbib Əliyevin xaricdə vətənimiz naminə etdikləri barədə silsilə yazılar yazmışdım. Mətbuat Şurasının sədri Əflatun Amaşovun Naxçıvana gedərək bir qrup deputatla xəstəxanada Həbib Əliyevə baş çəkməsi bir daha onu göstərir ki, Sizin seçib təyin etdiyiniz belə adamlar əsl vətənpərvər insanlardır. Ona görə də, cənab Prezidentim, Sizə bütün jurnalistlər və ailəmiz adından "çox sağ olun" deyirəm.

Allah Sizi qorusun. Amin!"

Həbib Əliyevin son 23 ildə Krımda Sevastopoldakı "Qobustan" radiosunun hər verilişində Üzeyir Hacıbəyovun "Koroğlu" üverturasının sədası altında minlərlə Azərbaycan ziyalısı təbliğ edilib. Burada Azərbaycanın tarixi, ədəbiyyatı, mədəniyyəti, muğamı, saz fəlsəfəsi daim efirdə səslənib. Tək Naxçıvandan 250 nəfər alim, şair, mədəniyyət işçisindən verilişlər efirə gedib. Gəncədən, Şamaxıdan, Bakıdan verilişlər gedib. Həbib Əliyev Sevastopolda teleradiodakı fəaliyyətinə görə fəxri fərmana, şəhər merinin diplomuna layiq görülüb, 2013-cü ildə Krımın Sudak şəhərində keçirilmiş dünya jurnalistləri radioları üzrə fəxri diploma və gümüş medala layiq görülüb. Azərbaycanda 2015-ci ildə Azərbaycan Prezidentinin fəxri diplomuna və Mətbuat Şurasının diplomuna layiq görülüb.

İlk verilişi "Heydər Əliyevin Qafqazda sülh siyasəti" olub, "Heydər Əliyev və Ukrayna", sonra "Nizami Gəncəvi dünya şairləri içərisində", "Krımda həlak olan azərbaycanlıların tarixi",

"Ukrayna və Azərbaycan mədəni əlaqələri" kimi verilişlər ilk verilişlərdəndir.

Azərbaycan Milli Elmlər Akademiyasında Tarix və Ədəbiyyat İnstitutundan alimlər, Fəlsəfə İnstitutunun direktoru İlham Məmmədov un çıxışı. "Azərbaycan fəlsəfəsi və dünya fəlsəfəsi". Tarix Etnoqrafiya İnstitutu, Səməd Vurğun, Budaq Budaqov, Nəriman Həsənzadə, Anar, Fikrət Qoca, Çingiz Abdullayev haqqında, "Lermontov və Azərbaycan", "Mirzə Fətəli Axundov və dostu Puşkin", "Taras Şevçenko və Azərbaycan ədəbiyyatı", "Naxçıvanın ayrıca tarixi", "Şamaxının tarixi abidələri" və digər bu qəbildən olan verilişlər "Qobustan"da gedir.

Nəhayət, Azərbaycanın bugünkü həyatında və dünya səviyyəli inkişafında İlham Əliyevin rolu və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən Azərbaycan milli-mənəvi dəyərlərinin dünya səviyyəsində təbliği "Qobustan" proqramının da əsas mövzu xəttini təşkil edib.

***Surxay Şirvan oğlu HÜMBƏTOV***
***"Türkün Fəxri" qəzetinin xüsusi müxbiri, Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

**Araşdırmalar göstərir ki, bu gün artıq Azərbaycana valyuta qazandıran əsas sahələrdən biri də turizm sektorudur. İndi bu istiqamətdən gələn valyutanın miqdarı milyardlarla dollar həcmində ölçülür. Qeyd edək ki, bu məsələyə Prezident İlham Əliyev 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə çıxışı zamanı da xüsusi toxunub:**

# Azərbaycanın turizm marketinq strategiyasında böyük dəyişikliklər olacaq




"Azərbaycanda mövcud olan sabitlik, beynəlxalq mövqelərimizin möhkəmlənməsi, ölkəmizdə keçirilmiş beynəlxalq tədbirlər turizmin inkişafına xidmət göstərir".

Dövlət başçısının sözlərinə görə, ötən il turist səfərləri rekord həddə çatıb və ölkəmizə 3 milyon 170 min xarici qonaq gəlib: "Mənə verilən məlumata görə, təkcə bank kartları ilə xarici turistlər Azərbaycanda 1 milyard 260 milyon manat pul xərcləyib. Ancaq bütövlükdə nəzərə almalıyıq ki, gələn turistlər əsasən qonşu ölkələrdəndir və bizdə olduğu kimi, orada da, hələ ki, nağd hesablaşmalar üstünlük təşkil edir. Ümumi hesablama göstərir ki, xarici turistlər Azərbaycanda bütövlükdə 4,3 milyard manat pul xərcləyib. Mən bunu manatla deyirəm, amma əslində bu, valyutadır. Bu valyuta, eyni zamanda, bir növ ixrac növüdür. Bizim makroiqtisadi vəziyyətimizin sabit olmasında da bunun çox böyük rolu var. Əlbəttə, biz əsas valyutanı neft-qaz satışından qazanırıq. Halbuki, qeyri-neft sektorunda ixracın 14 faiz artması indi bu sektordan da valyuta axınını təmin edir. Turizmin inkişafı bundan sonra da diqqət mərkəzində olacaqdır". Səslənən rəqəmlərdən belə bəlli olur ki, dollar ekvivalentində Azərbaycan turizmdən ötən il 2,5 milyard dollardan çox vəsait qazanıb. Digər tərəfdən o da bəlli olur ki, təkcə turizmdən əldə olunan gəlir 4,3 milyard manata çatmaqla qeyri-neft əmtəə ixracından 35 faiz çoxdur.

Hazırda ölkə qarşısında duran başlıca məsələlərdən biri isə daha çox sayda turistin Azərbaycana səfərinin təşkilinə nail olunmasıdır. Bu məqsədlə, əslində çoxsaylı addımlar atılır. Bu xüsusda Rusiya, Avropa və Ərəb ölkələri, Çin, Hindistan, Pakistan və digər çoxmillətli ölkələrlə işbirliyi də xüsusi maraq dairəsində yer alır. Digər tərəfdən o da məlumdur ki, son illər Azərbaycana bir neçə istiqamətdən, məsələn, Rusiyanın Soçi, Hindistanın ən böyük şəhəri olan Dehli, Misirin Şarm əl-Şeyx, İsveçrənin Cenevrə, Gürcüstanın Batumi şəhərlərindən aviareyslər açılıb. Ötən ilin sonunda Rusiyanın 9 şəhərindən Bakıya müntəzəm sərnişin aviareyslərinin yerinə yetirilməsinə dair razılıq əldə edilib. "Pegas Fly" həftədə iki dəfə Yekaterinburq, Kazan, Krasnodar, Mineralnıye Vodı, Orenburq, Perm, Rostov, Samara və Ufadan Azərbaycan paytaxtına uçuşları həyata keçirəcək. Artıq Mahaçqala-Bakı və Mahaçqala-Tehran birbaşa aviareyslərinin açılışı da planlaşdırılır.

Bundan başqa, artıq Azərbaycan mülki aviasiyasının tarixində ilk dəfə beşinci və yeddinci qrup "hava azadlığı" ölkənin bütün beynəlxalq hava limanlarında heç bir maneə olmadan tətbiq olunur. 2020-ci il yanvarın 1-dən etibarən sözügedən "hava azadlığı" qrupları ölkəmizin hava limanlarından Avropa, Şimali Amerika, Avstraliya və Cənub-Şərqi Asiyanın 40 ölkəsinə uçuşlar həyata keçirməyə imkan verir.

Hava məkanının azadlığı ilk növbədə səyahətlərə təkan verir. Yəni bu hadisənin turist axınını artıracağını və yeni gəlirlər gətirəcəyini gözləmək lazımdır. Daha əvvəl isə bəzi ölkələrdən Azərbaycana birbaşa uçuşların olmaması turistlərin ölkəmizə gəlməsində müəyyən çətinlik yaradırdı. Lakin barəsində yuxarıda bəhs edilən qərar bütün bu maneələri aradan qaldırır. Səmanın açılması həm ölkəmizə gələn, həm də ölkəmizdən gedənlər üçün münbit şərait yaradacaq. Bu baxımdan 2020-ci ilin Azərbaycan turizmi üçün sıçrayış ili olacağı gözlənir.

Qeyd edək ki, "Hava azadlığı" qrupu hər hansı bir ölkəyə məxsus aviaşirkətin təyyarələrinin digər dövlətin hava məkanında fəaliyyətini tənzimləyən qaydalar toplusudur. Bu zaman aviaşirkətlər bütün istiqamətlər üzrə, o cümlədən Azərbaycanın ərazisində azad kommersiya fəaliyyəti həyata keçirəcək. Belə vəziyyət Azərbaycana daha çox turist axınına rəvac verəcək və gözlənilən budur ki, cari ildə Azərbaycanın turizm gəlirləri artıq 3 milyard dolları keçəcək.

Digər tərəfdən məlumdur ki, Körfəz ölkələri Azərbaycan üçün olduqca vacib bazardır. Güclü mədəni əlaqələr və birbaşa aviareyslər turist axınına əsas verir. Son iki ildə Körfəz ölkələrinin "Emirates", "Etihad Airways", "Flydubai" və "Air Arabia" kimi aviaşirkətləri Bakı və Qəbələyə birbaşa xətlər açıb. Bu fonda əsas məsələ həm də budur ki, xidmət sektorunun inkişafına mühüm təkan verən turizm Azərbaycana valyuta gətirən əsas sahələrdən birinə çevrilir.

Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqstşmid isə turistlərin cəlbi üçün yeni metodlardan da istifadə olunacağını bildirir:"Biz artıq marketinq strategiyalarımızda yeni yollar tapmalıyıq və başa düşməliyik ki, turistlər daha etibarlı qeyri-kommersiya orqanlarını seçirlər. Bu il Qazaxıstan, Ukrayna, Cənubi Koreya Respublikası və Yaponiyada yeni nümayəndəliklərimizi açmağı düşünürük. Bu strategiya ilə yanaşı, turistlər üçün yeni broşürlər, materiallar dərc olunmalıdır ki, onlar Azərbaycan haqqında daha çox məlumatlı olsunlar".

***Ramil QULİYEV***

**Azərbaycan o ölkələrdəndir ki, neft-qaz yataqları ölkəmizə tərəqqi, xoşbəxtlik, inkişaf gətirdi. Bunu Prezident İlham Əliyev görkəmli neftçi-alim və geoloq, SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadənin 90 illik yubileyi münasibətilə mərasimdə deyib.**

# Neft və qaz Azərbaycan xalqına xoşbəxtlik gətirə bildimi...



## *Aydın Hüseynov: "Həqiqətən də neft gəlirləri Azərbaycana firəvan həyat gətirdi"*

Ölkə başçısının sözlərinə görə, neftdən əldə olunan gəlirləri ədalətli şəkildə idarə etmək, onları insanlara çatdırmaq, ölkə qarşısında duran əsas vəzifələrə yönəltmək siyasi rəhbərliyin böyük zəhməti hesabına və düşünülmüş siyasət nəticəsində mümkün olub: "Neftlə zəngin olan bir çox ölkələrdə, əksinə, neft xeyir yox, ziyan, problemlər gətirir, qanlı toqquşmalar baş verir. Biz tarixdən yaxşı bilirik ki, neft uğrunda mübarizə əksər hallarda çox böyük çətinliklərə, faciələrə gətirir. Azərbaycan isə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə başlanmış neft strategiyasını uğurla icra edərkən neftdən əldə olunmuş gəlirləri ölkəmizin ümumi inkişafına yönəltdi. Məhz buna görə bu gün adambaşına düşən valyuta ehtiyatlarına görə biz MDB məkanında birinci yerdəyik. Azərbaycanda yoxsulluq səviyyəsi 4,8 faiz ətrafındadır. Bu, onu göstərir ki, neftdən əldə edilmiş gəlirlər cəmiyyətdə ədalətli şəkildə bölünür və son illərdə ölkəmizdə yaşanan tərəqqi məhz bu amilə söykənir".

Prezident onu da qeyd edib ki, vətəndaşların sosial problemlərinin həlli də birbaşa neft-qaz sahəsində görülən işlərlə bağlıdır: "Bütün bu işlərin əsas mənbəyi neftdən əldə edilmiş gəlirlər və bu gəlirlərdən düzgün istifadə olunmasıdır".

Bütün bu deyilənlərin fonunda, neft-qaz gəlirləri Azərbaycana xoşbəxtlik gətirdimi? Bununla bağlı ekspertlərin yanaşması necədir?

*"Bütün bunlar aparılan uğurlu siyasət və neft gəlirlərindən düzgün istifadə etmək nəticəsində əldə olunub"*

Məsələyə münasibət bildirən millət vəkili Aydın Hüseynovun sözlərinə görə, Azərbaycan neft-qaz gəlirlərindən səmərəli istifadə edib: "Nəticədə həqiqətən də neft gəlirləri Azərbaycana firəvan həyat gətirdi. Ölkənin iqtisadi inkişafının təmin olunması üçün çox böyük bir bazar rolunu oynadı. Neft gəlirləri ölkənin müdafiə qüdrətinin artması deməkdir. Yəni, bütövlükdə, Azərbaycan iqtisadiyyatının bugünkü uğurlarının əldə olunmasında, ölkənin dünya miqyasında tanınmasında uğurlu neft strategiyasının rolu böyükdür. Bu da ulu öndər Heydər Əliyevin uzaqgörən strategiyasının nəticəsi idi. Bu gün dünyada elə ölkələr var ki, onların neft-qaz ehtiyatları bizdən qat-qat çoxdur. Ancaq həmin ölkələrdə nə siyasi sabitlik var, nə də neft gəlirlərinin ədalətli bölgüsü. Həmin ölkələrdə siyasi iğtişaşlar tuğyan edir. Azərbaycan hakimiyyəti isə neft gəlirlərindən səmərəli istifadə etməklə ölkənin inkişafını təmin etdi. Xalqın həyat səviyyəsi yüksəldi. Ən başlıcası isə bütün bunların sayəsində xalq firəvan şəraitdə yaşayır. Şübhəsiz ki, sadalananlar aparılan uğurlu siyasət və neft gəlirlərindən düzgün istifadə etmək nəticəsində əldə olunub".

***Vidadi ORDAHALLI***

# Azərbaycanda "20.02.2020 brendli uşaqlar" problemi - hətta bu həddə düşənlər var...

**Son illər Azərbaycanda uşaqların "zerkalnı" tarixdə doğulması üçün anaların keysəriyyə əməliyyatına baş vurması populyar hal alıb. Övladının xüsusi tarixdə dünyaya gəlməsini istəyən valideynlər tibbi müdaxilə yolu ilə doğuşu 1-2 gün tezləşdirir, ya da yubadırlar.**



***Pərvanə Mustafayeva:** "Hansısa əlamətdar gündə uşağın vaxtından tez dünyaya gəlməsi üçün bu qərarı verən ana ilə yanaşı, həkim də məsuliyyət daşıyır"*

Məsələn, ötən il xeyli sayda valideyn körpələrini 19.12.2019 tarixində dünyaya gətirmək üçün doğuş tarixini dəyişməyə çalışdı.

Son günlər sosial şəbəkələrdə gedən müzakirələrdə bildirilir ki, həmin günlər xəstəxanalarda digər xəstələri yatırmağa yer tapılmır. 2020-ci ildə də belə "zerkalnı" tarixlər mövcuddur. Bəzi valideynlər 02.02.2020 və ya 20.02.2020 tarixlərində uşağını dünyaya gətirmək üçün indidən həkimlə danışıq aparır ki, bəs həmin gün kesr yolu ilə olsa da, övladı mütləq dünyaya gəlməlidir.

Məsələ ilə bağlı fikir bildirən həkim-ginekoloq Pərvanə Mustafayeva bildirdi ki, tibbi müdaxilə yolu ilə tezləşdirmək və ya yubatmaq ananın və dünyaya gələcək körpənin sağlamlığı üçün təhlükəlidir: "Bu qərarı verən ana və onunla razılaşan həkim məsuliyyət daşıyır.

Bu heç bir millətdə yoxdur, təkcə bizim millətdə olan bir fikirdir. Doğuşun vaxtıdırsa, sən doğuşa müdaxilə edə bilməzsən. Əgər keysəriyyə əməliyyatına göstəriş olarsa, o zaman keysəriyyə əməliyyatı baş tuta bilər. Düzdür, doğuşu 2-3 gün gec və ya tez etmək olar. Amma məhz uşaq bu tarixdə doğulsun deyə, normal doğuşa imkan ola-ola keysəriyyə əməliyyatı etdirmək istəyənlərin psixologiyasında problem var. Burada həm ana, həm də həkim məsuliyyət daşıyırlar. Belə doğuşun müxtəlif fəsadları ola bilər".

*"Tibbi müdaxilə yolu ilə tezləşdirmək və ya yubatmaq ananın və dünyaya gələcək körpənin sağlamlığı üçün təhlükəlidir"*

**Həmsöhbətimiz onu da əlavə etdi ki, indi bir çox xəstəxanada göstəriş olmadan keysəriyyə əməliyyatına icazə vermirlər. Göstərişlərə isə gözdə zəiflik, uşaqlıq yolunda çapıq və s. aid edə bilərik: "Belə əməliyyatın daha çox anaya fəsadları olur. Məsələn, uşaqlığın yığılma qabiliyyətinin pozulması, embaliya, qanaxma və s. ola bilər".**

*Günel CƏLİLOVA*

# Sabunçunun Albalılıq qəsəbəsi - marşrutu yox dərəcəsində unudulmuş qəsəbə...

**Sabunçu rayonu, Albalılıq qəsəbəsində marşrut problemi yenidən gündəmdədir. Qəsəbə sakinləri şəhərin mərkəzinə birbaşa ictimai nəqliyyatın olmadığından gileylənirlər.**



***Qəsəbə sakini Xəlil Əliyev:** "Sakinlər neçə ildir marşrut sarıdan əziyyət çəkirlər"*

***Bakı Nəqliyyat Agentliyi:** "Problem həmin ərazidə yol infrastrukturunun mövcud vəziyyəti ilə bağlıdır"*

Bir sözlə, qəsəbə sakinləri avtobus sarıdan əziyyət çəkirlər. Sakinlər iddia edirlər ki, metronun "Neftçilər" stansiyasından qəsəbəyə yalnız 186 nömrəli avtobuslar gəlir. Həmin xətdəki avtobusların sayı isə azdır. Sakinlər bildirirlər ki, qəsəbəyə gələn avtobus sayının az olması qəsəbədaxili yolların bərbad vəziyyətdə olması ilə bağlıdır. Xüsusən də yağışlı, qarlı havada yollardan keçmək mümkünsüzdür. Təbii ki, narahat yol avtobusun tez xarab olmasına səbəb olduğu üçün, həmin ərazi üzrə hərəkət edən daşıyıcıların sayı da az olur.

Qəsəbə sakini Xəlil Əliyev bizimlə söhbətində qeyd etdi ki, sakinlər neçə ildir marşrut sarıdan əziyyət çəkirlər: "Marşrut xəttində olan avtobusların tutumu isə balacadır. Avtobusların sayının az olması, üstəlik, tutumunun da az olması basabasın yaranmasına səbəb olur. Əgər xəttə böyük avtobuslar buraxılsa, belə çətinliklərlə üzləşmərik. Axşamlar yorğun işdən qayıdanda avtobusa minmək olmur. O dərəcədə sıxlıq olur. Sıxlıq üzündən səhərlər işə getmək, axşamlar işdən evə qayıtmaq müşküldür. Buna görə xeyli vaxt itiririk. Hansı ki, iritutumlu avtobuslar olsa və daşıyıcıların sayı artıq olarsa, bu qədər çətinlik çəkmərik".

Məsələ ilə bağlı Bakı Nəqliyyat Agentliyinə müraciət etdik.

**BNA-dan bizə bildirildi ki, problem həmin ərazidə yol infrastrukturunun mövcud vəziyyəti ilə bağlıdır: "Yolların bu vəziyyəti avtobusların texniki baxımdan qısa bir zamanda yararsız hala düşməsinə səbəb olur. Hazırda marşrut xətti ilə bağlı müəyyən dəyişikliklər üzərində iş aparılır".**

*Günel CƏLİLOVA*

# Mərdəkanda zoomarketə basqın edərək 14 min manatı apardılar, Biləsuvarda polis tərəfindən yaxalandılar





**Xəzər rayonu Mərdəkan qəsəbəsində yerləşən zoomarketə basqın olub.**

Naməlum şəxslər mağazanın sahibi H.Babayevə bıçaqla xəsarət yetirərək onun cibində olan 14000 manat pulu ələ keçiriblər. Məlumat daxil olan kimi Xəzər Rayon Polis İdarəsinin 1-ci Polis Şöbəsinin əməkdaşları tərəfindən təxirəsalınmaz əməliyyat tədbirləri keçirilib. Nəticədə cinayəti törətməkdə şübhəli bilinən iki nəfər paytaxt sakini - Ehtiram Əliyev və Ələsgər Əliyev qısa zamanda tutulub. Qeyd edək ki, E.Əliyev əvvəllər həmin zoomarketdə işləyib. Hadisədən sonra hər iki şəxs Biləsuvar rayonuna qaçsa da polislər onların izinə düşə bilib.

**Faktla bağlı saxlanılan şəxslərin hər biri barəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlayıb, araşdırmalar davam etdirilir.**

№ 7 (4138) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

16 YANVAR 2020-ci il

www.baki-xeber.com



# NASA-da təcrübə keçən məktəbli yeni planet kəşf etdi

**NASA-da təcrübə keçən məktəbli oğlan iki ulduzun ətrafında fırlanan yeni planet kəşf edib.**

"Milli.Az" xəbər verir ki, Volf Cuker adlı məktəbli oğlan yay tətili zamanı NASA-da təcrübə keçmək üçün qeydiyyatdan keçib. NASA ona parlaq ulduzları araşdırması üçün tapşırıq verib. Cuker təcrübə keçdiyi 3-cü gün TOI 1338 adlı ulduz sistemindən gələn dəyişkən siqnal görüb. Daha sonra könüllülər tərəfindən işarələnmiş iki ulduzlu sistemləri incələyən Cuker əvvəlcə ulduzun qarşısından keçən ikinci ulduz olduğunu fikirləşsə də, lakin zaman anlayışında səhvlik olduğunu görüb yeni planet olduğunu anlayıb.

**Beləliklə, Cuker adlı gənc oğlan kəşf etdiyi planetlə adını tarixə yazdırmağı bacarıb və həmin planetə TOI 1338b adı verilib. Cuker San Dieqo və Çikaqo universitetlərində mütəxəssis adını qazanıb. Qeyd edək ki, Cukerin kəşf etdiyi planet Yerdən 6,9 dəfə daha böyük və 300 işıq ili uzaqlığındadır.**

## "Azercell Telekom" MMC-nin "Mobil Diş Klinikası" hesabatını açıqladı

**"Azercell Telekom" MMC-nin uğurla fəaliyyət göstərən "Mobil Diş Klinikası" 2019-cu ildə gördüyü işlərlə bağlı yekun hesabatını açıqlayıb.**

Klinikanın həkimləri Bakı şəhərindəki bir çox internat məktəbinə, uşaq evlərinə, eyni zamanda, rayonlarımıza səfər edib, minlərlə ehtiyacı olan insana yardım ediblər. 2019-cu ildə həkim baxışına ehtiyacı olan 507 nəfər müayinə, 546 nəfər isə müalicə olunub.

Azərbaycandakı əksər uşaq evlərinin stomatoloji kabinetinin olmadığını nəzərə alan "Azercell" "Mobil Diş Klinikası"nı ən müasir tibbi avadanlıqla təchiz edib. Şirkət yalnız Bakıda deyil, respublikanın regionlarında da yaşayan bütün kimsəsiz uşaqlara yardım etməyi hədəfləyib.

Qeyd edək ki, bu klinikanın bütün tədbirləri "Azercell Telekom" MMC-nin dəstəyilə "Xəzər Qayğıkeşlik Layihəsi" İctimai Birliyi tərəfindən həyata keçirilir. Fəaliyyət göstərdiyi illər ərzində layihə çərçivəsində minlərlə insan "Mobil Diş Klinikası"nın həkimləri tərəfindən müayinə edilib və ehtiyac olduğu təqdirdə müalicə alıb.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## Elan

Qədirov Səlahəddin Abdulfat oğlunun adına, Bakı şəhəri, Lütvüzadə (Telnov) küçəsi, ev 5, mənzil 64 ünvanına verilmiş qeydiyyat şəhadətnaməsi (çıxarış) itdiyi üçün etibarsız sayılır.

Cahangirov Nizami Zöhrab oğlunun adına, Bakı şəhəri, Qara-Çuxur qəsəbəsi, Fətəliyev küçəsi, ev 17, mənzil 32 ünvanına verilmiş çıxarış (kupça) itdiyi üçün etibarsız sayılır.

Nəsrullayev Emin Seyidəliyeviçə məxsus, Bakı şəhəri, Nəsimi rayonu, 5-ci mkr, Asif Məhərrəmov, bina 42, mənzil 9 ünvanına verilmiş çıxarış (kupça) itdiyi üçün etibarsız sayılır.

Rüstəmova Rəfiqə Sahib qızının adına, Bakı şəhəri, Nəsimi rayonu, 2-ci Məmmədyarov Bul, ev 5B, mənzil 10 ünvanına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

## "Bakcell" yeni "099" prefiksini istifadəyə verib

**"Bakcell" şirkəti özünün yeni "099" (və ya beynəlxalq yığım qaydası +99499 olan) mobil prefiksini kommersiya istifadəsinə verib. Nömrələrin satışı bu gündən etibarən həyata keçiriləcək.**

Yeni 099 prefiksi sayəsində istifadəçilər geniş çeşidli yeni nömrələrdən seçim imkanı əldə edəcəklər. İlkin mərhələdə "Bakcell" abunəçilərinə "099"la başlayan və uşaqların doğum günü və ya həyatlarının hər hansı əhəmiyyətli günü ilə bağlı olan xüsusi kombinasiyalı mobil nömrələr əldə etmək imkanı veriləcək. Həyatlarının vacib və yaddaqalan hadisəsini mobil nömrə vasitəsilə ifadə etmək və yaxud sadəcə gözəl bir kombinasiyalı nömrə əldə etmək imkanı müştərilərin əldə etdiyi nömrələrə əlavə dəyər qatacaq. Bütün bunlar isə Azərbaycanın ən üstün mobil şəbəkəsi ("Ookla" şirkəti tərəfindən keçirilmiş sınaqlara əsasən) və rahat müştəri xidmətlərindən istifadə etmək imkanı yaradır.

"Yeni 099 prefiksi vasitəsilə biz istifadəçilərə çox xüsusi və fərdi nömrələr əldə etmək üçün daha geniş imkanlar təklif edəcəyik və bu nömrələri ölkənin ən üstün mobil şəbəkəsində ("Ookla" şirkəti tərəfindən keçirilmiş sınaqlara əsasən) istifadə etmək onlara əlavə üstünlüklər qazandıracaq. Müştərilərimizə ən yüksək keyfiyyətli müştəri təcrübəsi ilə təmin etməyə yönəlmiş fəaliyyətimizi davam edəcəyik" - deyə "Bakcell" şirkətinin baş icraçı direktoru Rainer Ratgeber bildirib.

Yeni 099 prefiksi ilə başlayan fərdi mobil nömrəni əldə etmək üçün "Bakcell"in istənilən diler mağazasına getmək və ya nomre.bakcell.cominternet səhifəsindən istifadə etmək olar.

Qeyd edək ki, "099"la başlayan nömrələr aylıq abunə haqqı ilə təklif olunan aşağıdakı tariflərdən biri ilə aktivləşdirilir: "CIN5", "DaimOnline6", "DaimOnline10", "Klass L", "Klass XL", "Klass XXL", "Klass 3XL".

"Bakcell" xidmət və şəbəkə keyfiyyətinin müntəzəm qaydada təkmilləşdirilməsi vasitəsilə abunəçilərini ən üstün müştəri təcrübəsi ilə təmin etməyə davam edəcək.





**Qoç** - İşlərinizdə sizi uğur gözləyir. Qeyri-standart yanaşma, yeni baxış tələb edən işlərdə çox irəli gedəcəksiniz. İş tərəfdaşlarınız və rəhbərliklə razılığa gələ, əməkdaşlığı yeni bir səviyyəyə qaldıra bilərsiniz.



**Buğa** - Əlverişli gündür. Günün birinci yarısı həyatınızda əhəmiyyətli rol oynayacaq vacib və maraqlı hadisə ilə yadda qalacaq. Çoxdandır fikrinizdə tutduğunuz planı reallaşdırmaq, mövqelərinizi möhkəmləndirmək imkanı yaranacaq.



**Əkizlər** - Həftə çox uğurlu bir günlə başlayır. Bir qədər təzadlı və qərarsız xasiyyəti olan şəxslər özlərini narahat hiss edəcəklər. Şübhələr çoxluq təşkil edir: şəraitə uyğun olmaq üçün qətiyyət tələb olunur.



**Xərçəng** - İstənilən maliyyə əməliyyatları üçün uğurlu gündür. İri məbləğdə pullardan istifadə edə bilər, bahalı mallar ala bilərsiniz. Bir-birinə qarşı dərin hisslər duyan insanlar razılığa gələ, inciklikləri unuda bilərlər.



**Şir** - Asan olmayan, amma vacib məsələnin həllinə başlamağın vaxtı çatıb. Çətin ki, onun öhdəsindən birdən-birə gəlmək mümkün olsun. Lakin bu gün necə hərəkət etməyin lazım olduğunu başa düşəcək, aralıq məqsədləri müəyyənləşdirə biləcəksiniz.



**Qız** - Digər günlərdən fərqli olaraq bu gün daha təmkinli, soyuqqanlı və sakitsiniz. Bu isə ailədaxili münaqişələri dəf etməyə, sevdiyiniz şəxslə daha mülayim davranmağınıza kömək edir.



**Tərəzi** - Günün əsas problemi emosional fonun gərgin olmasıdır. Hətta, çox mehriban bir adam təsadüfən sizin kefinizə soğan doğrayacaq. Yazıq onun halına: sizin kəskin və coşğun reaksiyanız hətta özünüzü də təəccübləndirəcək.



**Əqrəb** - Ulduzlar hələ də sizin tərəfinizdədir. Dünən çatdıra bilmədiyiniz işləri bu gün müvəffəqiyyətlə başa vura biləsiniz. Bundan başqa, gün işgüzar təmaslar, əməkdaşlığın müzakirəsi üçün münasibdir.



**Oxatan** - Əgər bu gün eyhtiyatlı və diqqətli olsanız, həftənin sonunadək bir çox narahatlıqdan canınızı qurtara bilərsiniz. Elə səhvləriniz ola bilər ki, onları düzəltmək üçün çox vaxt və əsəb sərf etməli olarsınız.



**Oğlaq** - Səbrinizi toplayın. Hələlik isə maneələri aşmalı, bədxahlarınızla mübarizə aparmalı olacaqsınız. Belə bir "dəstək qrupu" ilə nəyəsə nail olmağın mümkünlüyündən şübhələnməyə başlayacaqsınız.



**Dolça** - Çoxdan hazırladığınız layihəni gerçəkləşdirməklə yanaşı, bu gün yeni birini də başlayacaqsınız. Bunlar sizin ambisiyalarınıza tamamilə uyğun gəlir və karyerada irəliləməyinizə, gəlirlərinizi artırmağınıza rəvac verir.



**Balıqlar** - Ətrafdakılara diqqətlə nəzər yetirmək lazımdır. Bu gün düzgün müttəfiqlərdən yararlanmaqla böyük uğurlar əldə etmək olar. Lakin planlarınızı yalnız etimadınızı qazanan insanlarla bölüşün.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Azərbaycanda fermer arılarını elektrik lampası ilə qoruyur

**Adi elektrik lampasından istifadə edərək soyuq aylarda arılarını qoruyur...**

"Xezerxeber.az" xəbər verir ki, Oğuz rayonunun Xaçmaz kənd sakini Dağlar Mehdiyev arıların qışda tələf olmasına səbəb olan soyuq havalarda canlıların sağ qalması üçün yeni üsul tətbiq edib.

Onun təcrübəsinə görə, yeşiklərdə 35 dərəcə temperatur yaradılarsa, arılarda ölüm sıfıra bərabər olur. Qutularda sabit 35 dərəcə temperaturu isə arıçı adi elektrik lampası ilə təmin edə bilib.

Belə lampalar metal torla yuvanın içərisində yaradılan isidici kameraya qoyulur. Dağlar Mehdiyev onu da bildirir ki, bu üsulla arılardan daha çox məhsul götürə bilir.

Təcrübəli arıçı gələcəkdə bu metodu inkişaf etdirərək elektron mətkəzi idarəetmə sisteminin yaradılması haqda düşünür.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.